**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# NAXÇIVAN DİYARININ TUNC DÖVRÜ DULUSÇULUQ SƏNƏTİ

İxtisas: 5505.02 – Arxeologiya

Elm sahəsi: Tarix

İddiaçı: **Toğrul Fərman oğlu Xəlilov**

Elmlər doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**NAXÇIVAN – 2024**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun "Antik və Orta əsrlər arxeologiyası" şöbəsində yerinə yetirilmişdir.

Elmi məsləhətçi: Tarix elmləri doktoru, professor
**Abbas Qadir oğlu Seyidov**

Rəsmi opponentlər: Tarix elmləri doktoru, professor
**Arif Məhəmməd oğlu Məmmədov**

Tarix elmləri doktoru, professor
**Ayşe Tuba Ahmet Necati kızı Ökse**

Tarix elmləri doktoru, professor
**Mehmet Ahmet Remzi oğlu Işıklı**

Tarix elmləri doktoru, dosent
**Vəfa Əzbər qızı Mahmudova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının AMEA Naxçıvan Bölməsinin nəzdində fəaliyyət göstərən ED 1.13 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: AMEA-nın həqiqi üzvü, tarix elmləri doktoru, professor
______________ **İsmayıl Muxtar oğlu Hacıyev**

Dissertasiya şurasının elmi katibi: Tarix elmləri doktoru, dosent
______________ **Emin Arif oğlu Şıxəliyev**

Elmi seminarın sədri: AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor
______________ **Vəli Baxşəli oğlu Baxşəliyev**

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası yaşayış üçün əlverişli təbii cografi mövqeyə, zəngin təbii sərvətlərə malikdir. Buna görə də, insanlar qədim daş dövründən (Paleolit dövründən) etibarən bu ərazidə yaşayaraq zəngin maddi-mədəniyyət nümunələri yaratmışlar. Bölgənin qədim abidələri yaşayış yerlərindən, qalalardan, siklopik tikililərdən, müdafiə istekamlarından, nekropollardan və s. ibarətdir. Hər bir abidə, onlardan aşkar olunan artefaktlar tarixin canlı şahidi olduğu üçün, maddi və mənəvi mədəniyyətimizin öyrənilməsində özünəməxsus yer tutur və mühüm elmi əhəmiyyət daşıyır. Onları kompleks şəkildə tədqiq etməklə Azərbaycan arxeologiyasında aktuallıq kəsb edən bir çox məsələləri dərindən öyrənmək, müəyyən elmi nəticələr əldə etmək mümkündür. Azərbaycanın müstəqillik əldə etməsinə qədərki dövrdə yerli mütəxəssislər az olduğuna görə arxeoloji tədqiqatlarla ilk vaxtlar həvəskarlar, əcnəbi arxeoloqlar məşğul olmuşlar. Onların əldə etdiyi arxeoloji materiallar haqqında verdiyi məlumatlar yığcam və bəsit olmuşdur. Abidələrdən aşkar olunmuş maddi-mədəniyyət nümunələrimiz xarici ölkələrə aparılaraq, müxtəlif müzeylərə verilmişdir.

1969-cu ildə Azərbaycan xalqının Ümumimilli lideri Heydər Əliyevin siyasi hakimiyyətə gəlməsindən sonra arxeoloji, tarixi və memarlıq abidələrimizin öyrənilməsi üçün əlverişli şərait yaradılmışdır. Ulu öndər Azərbaycanda, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvanda bu elmin inkişafı üçün misilsiz işlər görmüşdür. H.Ə.Əliyev tarixi keçmişimizin elmi tədqiqinə və təbliğinə xüsusi diqqət və qayğı göstərmişdir. Bu sahədə xüsusi tədbirlər planının qəbul edilməsi elmi-tədqiqat işlərinin keyfiyyətini daha da artırmışdır. Heydər Əliyevin keçən əsrin 70-80-ci illərində Azərbaycana rəhbərlik etdiyi dövrdə Naxçıvan arxeologiyası daha çox inkişaf etmiş, arxeoloji tədqiqatların əhatə dairəsi və əhəmiyyəti artmışdır. Bu dövrdə azərbaycanlı gənc arxeoloqlar Moskva və Leninqrad şəhərlərinə (indiki Sankt-Peterburq) aspirantura təhsili almaq və təcrübə keçmək üçün göndərilmişdir. 1974-cü ildə milli arxeoloqların sayının artması

nəzərə alınaraq, elmi tədqiqat işlərinin Azərbaycanda keyfiyyətini artırmaq məqsədi ilə Azərbaycan Elmlər Akademiyası Tarix İnstitutunun nəzdində Arxeologiya və Etnoqrafiya sektorunun təşkil olunmasının bu sahəyə böyük təsiri olmuş, arxeoloji tədqiqatların əhatə dairəsi genişlənmişdir. Şamaxı, Qəbələ, Şəki, Quba, Gəncə və digər bölgələrdə olduğu kimi, Naxçıvanda da 1975-ci ildən başlayaraq arxeoloji baza təşkil olunmuş, aparılan arxeoloji tədqiqatların əhatə dairəsi genişləndirilmişdir.

1981-ci ilin sentyabr ayında Heydər Əliyevin şəxsi təşəbbüsü ilə Azərbaycan KP MK və Nazirlər Soveti "Azərbaycan SSR-də memarlıq və arxeoloji abidələrin qorunması və istifadəsinin yaxşılaşdırılması haqqında" qərar qəbul etmişdir. Bu qərar Azərbaycanın bütün bölgələrində olduğu kimi, Naxçıvanda da arxeologiya və etnoqrafiya elmlərinin inkişaf etməsi üçün mühüm əhəmiyyət daşımışdır. Heydər Əliyevin 1993-cü ildən başlayan siyasi hakimiyyətinin ikinci dövründə bu sahəyə xüsusi diqqət və qayğı göstərilmişdir. Ümummilli liderin tövsiyə və tapşırığına əsasən Azərbaycan Respublikası Nazirlər kabinetinin 1993-cü il 8 iyul tarixli qərarı ilə Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun nəzdində fəaliyyət göstərən Arxeologiya və Etnoqrafiya sektorunun bazasında müstəqil Arxeologiya və Etnoqrafiya İnstitutunun təşkil olunması Azərbaycanın digər bölgələrində olduğu kimi, Naxçıvanda da arxeoloji tədqiqatların daha geniş şəkildə aparılmasına şərait yaratmışdır. Naxçıvandakı abidələrin öyrənilməsi hər zaman diqqət mərkəzində olmuşdur. Ulu öndər 12 avqust 2002-ci ildə Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin yaradılması ilə bağlı keçirilən müşavirədəki çıxışında bu məsələ haqqında demişdir: "*Azərbaycan haqqında fikirlərimi sizə çatdıraraq demək istəyirəm ki, bu baxımdan Naxçıvan xüsusi yer tutur. Naxçıvanın qədim, zəngin tarixi Azərbaycan tarixinin çox parlaq səhifələrindəndir. Əgər Azərbaycanın tarixi haqqında, ümumiyyətlə, bir çox işlər görülübsə, Naxçıvanın tarixi haqqında, qədim tarixi haqqında və Naxçıvanın bir diyar kimi öyrənilməsi, həm təbiətinin, həm adət ənənələrinin, etnoqrafiyasının öyrənilməsi barədə çox*

*az iş görülübdür. Bunları nəzərə alaraq, mən bu sərəncamı vermişəm”.*[1]

Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fəaliyyətində də hər zaman Naxçıvan tarixinin öyrənilməsi ən əsas prioritet məsələlərdən biri kimi daima diqqət mərkəzindədir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev öz çıxışlarında dəfələrlə qeyd edib ki, *“Naxçıvan qədim Azərbaycan torpağıdır, qədim tarixə və mədəniyyətə malikdir. Naxçıvanın tarixi abidələri Azərbaycan xalqının böyük istedadının nümunələridi.*”[2]

Ümummilli lider Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Naxçıvanın tarixini, maddi və mənəvi mədəniyyətini dərindən öyrənmək üçün tədqiqatçıların qarşısında qoyduğu vəzifələri, tapşırıqları uğurla yerinə yetirmək üçün Naxçıvan diyarının Tunc dövrü dulusçuluq sənətini öyrənmək tərəfimizdən əsas tədqiqat obyekti seçilmişdir.

Naxçıvan Muxtar Respublikasının ərazisi Tunc dövrünə aid arxeoloji abidələrlə zəngindir. Onlar yaşayış yerləri, nekropollar, siklopik tikililər və qalalardan ibarətdir. Bu abidələrin hər biri qədim dövr tariximizi, maddi və mənəvi mədəniyyətimizi öyrənmək üçün mühüm elmi əhəmiyyət daşıyır və Azərbaycan arxeologiyasında özünəməxsus yer tutur. Onlardan əldə olunan arxeoloji materialları sistemli şəkildə tədqiq etməklə Naxçıvanın Tunc dövrü mədəniyyətinə aid bir çox aktual məslələri dərindən öyrənmək, mühüm elmi nəticələr əldə etmək mümkündür. Belə artefaktar içərisində keramika məmulatları özünəməxsus yer tutur. Onlar Naxçıvan diyarının Tunc dövrü dulusçuluq sənətini öyrənmək üçün mühüm elmi əhəmiyyət daşıyır. Naxçıvan diyarının Tunc dövrü dulusçuluq sənəti ilə bağlı ilk arxeoloji materiallar XIX əsrin sonu – XX əsrin əvəllərində aşkar edilmişdir. 1895-ci ildə Araz çayının sol sahilində yerləşən Qızılburun adlı ərazidə təsərrüfat işləri aparılarkən bir neçə daş qutu qəbir

---

[1]Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi / tərt. ed. İ.Hacıyev. – Bakı: Nurlan, – 2005. – s. 17.

[2]İqtibaslar [Elektron resurs]. URL:Lhttps://ilhamaliyev.preslib.az/docs/i20.pdf, s. 12

dağılmışdır. Bu qəbirlərin bir neçəsinin materialları o zaman Naxçıvanda sərhəd gözətçi məntəqəsinin rəisi olmuş N.V.Fyodorov tərəfindən toplanılmışdır. 1896-cı ildə N.V.Fyodorov İmperator Arxeoloji Komissiyasının tapşırığı ilə Qızılburunda qazıntı işləri aparmış, əldə etdiyi arxeoloji materiallar haqqında heç bir yazılı məlumat verməyərək, onları Moskvaya göndərmişdir. Aradan bir müddət keçdikdən sonra, 1909-cu ildə İmperator Arxeoloji Komissiyası Bülleteninin 29-cu buraxılışında A.A.Spitsın tərəfindən ilk dəfə N.V.Fyodorovun materialları haqında məlumat verilmişdir. Müəllif Qızılburun nekropolunda 1896 və 1904-cü illərdə aparılan arxeoloji qazıntılar zamanı aşkar edilmiş materiallardan bəhs etsə də,[3] oradakı qəbirlərin dövrü, dəfn adəti haqqında sanballı, yekun elmi nəticə əldə etməmişdir. İstər bu dövrdə, istərsə də 1904-cü ildə I Kültəpə abidəsində aparılan kəşfiyyat xarakterli arxeoloji tədqiqatlar zamanı Naxçıvanın Tunc dövrü dulusçuluq sənətinə aid xeyli keramika məmulatı aşkar edilmişdir. Aşkar olunan monoxrom və polixrom rəngli qabların bir qismi 1905-ci ildə Tiflisə aparılaraq oradakı Qafqaz muzeyinə təhvil verilmişdir[4].

Sovet hakimiyyəti illərində mövcud olan bir sıra elmi-tədqiqat müəssisələri və mədəni-maarif idarələri abidələrin qorunması və tədqiq edilməsi ilə məşğul olmuşdur. 1923-cü ildə yaradılmış "Azərbaycan Tədqiq və Tətəbbö Cəmiyyəti" tərəfindən Azərbaycanın bir sıra bölgələri kimi, Naxçıvan Muxtar Respublikasına da arxeoloji ekspedisiyalar təşkil etmişdir. Yerli mütəxəssislər az olduğu üçün ilk arxeoloji tədqiqatlarla həvəskar insanlar, əcnəbi arxeoloqlar məşğul olmuşlar. 1925-ci ildən 1928-ci ilə kimi fəaliyyət göstərdiyi dövrdə "Azərbaycan Tədqiq və Tətəbbö Cəmiyyətinin Naxçıvan şöbəsi" digər sahələrlə yanaşı arxeologiyanın inkişafına, abidələrimizin öyrənilməsinə hərtərəfli diqqət və qayğı göstərmişdir. Bu sahə ilə məşğul olmaq üçün "Arxeoloji bölmə" də yaradılmışdır. Xaraba Gilanda 1925-ci ilin sentyabr ayından 1926-cı ilin iyun ayına qədər arxeoloji qazıntının aparılmasına ciddi hazırlıq görülmüşdür. Bu işin həyata

---

[3]İsmayılzadə Q., İbrahimli B.İ. Qızılburun nekropolu / Q.İsmayılzadə, B.İbrahimli, – Bakı: Elm və Təhsil, – 2013. – s. 9-13

[4]Əliyev V.H. Azərbaycanda tunc dövrünün boyalı qablar mədəniyyəti / V.Əliyev. – Bakı: Elm, – 1977. – s. 6-7.

keçirilməsi üçün 300 min manat pul ayrılmışdır. V.M. Sısoyevin rəhbərliyi ilə Bakıdan dəvət edilmiş xüsusi elmi ekspedisiyasının üzvləri ilə birlikdə cəmiyyət üzvləri də 1926-cı ilin iyun ayının 28-nədək bu abidədə aparılmış arxeoloji tədqiqatda iştirak etmişlər. "Azərbaycan Tədqiq və Tətəbbö Cəmiyyətinin Naxçıvan şöbəsi"nin 1926-cı ilin yanvarın 22-də keçirilmiş iclasında C.Əmirova Qızılburun abidəsi haqqında daha ətraflı məlumat toplamaq tapşırılmışdır. Şöbənin 1926-cı ilin aprelin 22-də qəbul olunmuş qərarına əsasən Qızılburun abidəsində arxeoloji tədqiqatlar aparılması üçün Bakı şəhərinə müraciət edilmişdir. 1926-cı ildə şöbənin təşkilatçılığı ilə Qızlburunda İ.İ.Meşşaninovun rəhbərliyi ilə arxeoloji qazıntıların aparılmasına başlanılmışdır. Tədqiqat zamanı İ.İ.Meşşaninov bu abidədə arxeoloji qazıntı aparılmasının əhəmiyyətini yüksək qiymətləndirərək demişdir: *"O vaxtdan* (1896 və 1904-cü ildən – T.X) *bu rayondan müstəsna əhəmiyyətə malik boyalı qablar tapılmasına baxmayaraq, bu abidə nəinki elmi tədqiqata cəlb olunmamışdır, hətta nekropolun bir hissəsinin dəmir yolunun çəkilişi zamanı dağıdılması da diqqətdən kənarda qalmışdır. Bununla da, sirli Qızılvəng (Qızılburun – T.X) boyalı keramikasının Cənubi Qafqazın digər qədim abidələri içərisində yeri aydınlaşdırılmamış qalmışdır".*[5]

İ.İ.Meşşaninovdan sonra 1926-cı ilin sentyabrında A.A.Miller tərəfindən də bu abidədə arxeoloji tədqiqat aparılmışdır[6]. Hər iki tədqiqatlarda şöbənin elmi katibi Mirbağır Mirhüseyin oğlu Mirheydəzadə və "Arxeoloji bölmə" nin elmi katibi Yusif Qazıyev yaxından iştirak etmişlər. Tədqiqatlar zamanı bu abidədən bəzək əşyaları, xəncərlər və s. maddi-mədəniyyət nümunələri ilə yanaşı xeyli miqdarda gil qablar, keramika məmulatları aşkar olunmuşdur. A.A.Miller Qızılburunda apardığı tədqiqatlara dair "Azərbaycan Tədqiq və Tətəbbö Cəmiyyətinin Naxçıvan şöbəsi"nin 1926-cı ilin sentyabrın 26-da keçirilmiş ümumi iclasında (protokol №30) etdiyi məruzəsində

---

[5]Мещанинов И.И. Краткие свидения о работах археологической экспедиции в Нагорный Карабах и Нахичеванский край // – Ленинград: Сообщ. ГАИМК, – вып. I, – 1926. – s. 234.

[6]Миллер А.А. Археологические исследования в Нахичеванской республике летом 1926 г // – Ленинград: Сообщ. ГАИМК, – вып. I, – 1926, – s. 326.

abidənin elmi əhəmiyətini yüksək qiymətləndiərək demişdir: *"Mənim Qızılvəngə (Qızılburun – T.X) gəlməyimin əsl səbəbi budur ki, buranın mədəniyyəti dünya mədəniyyəti ilə əlaqədardır. Qızılvəng mədəniyyəti bir çox yerlərin mədəniyyətinə müşabehdir, Babilistan-Şam və Ağdəniz sahillərinin mədəniyyəti Qafqazın mədə-niyyəti ilə rabitəlidir. Mən Qızılvəngdən ümidsiz qayıtmıram. Bu hər-fiyyatda tapdığım şeylər Qafqazın mədəniyyətli olmasını isbat edir. Burada daş dövründən yaşam olduğuna inanmaq olar. Cənubi Qaf-qazda mən hərfiyyat aparmışam. Orada yaşamış olan "İskit" türk-lərinin mədəniyyəti ilə Qızılvəng mədəniyyəti birdir. Hər iki məhəldə tapılan şeylər bir-birinə oxşayır. Bundan başqa Almaniyadakı "Şleza" qövmünün mədəniyyəti ilə də bu mədəniyyət eynidir".*[7]

Bu dövrdə milli arxeoloqlar da tədqiqatlar aparmışlar. 1926-cı ildə Ə.K.Ələkbərov tərəfindən Culfa, Ordubad, Şahbuz rayonlarının ərazisində aparılmış kəşfiyyat xarakterli arxeoloji tədqiqatlar zamanı Əlincəçay dərəsindən, Ərəfsə kəndi yaxınlığından və Nəhəcirdən xeyli miqdarda boyalı qablar aşkar edilmişdir. Əldə olunmuş maddi-mədəniyyət nümunələrinə əsasən boyalı qabların Naxçıvan Muxtar Respublikasının dağlıq ərazilərinə də yayıldığı müəyyən edilmişdir. Tədqiqatçı tərəfindən Nəhəcirdən aşkar olunan monoxrom rəngli gil qablar e.ə. II minilliyin əvvəlinə aid edilmişdir.[8] 1926-cı ildə arxeoloq İ.Cəfərzadə tərəfindən də Qızılburun abidəsində tədqiqat aparılaraq, oradakı daş qutu qəbirlərdən biri öyrənilmişdir. Onun ekspedisiyasının tərkibində Ə.Ələkbərov, T.Passek, B.Latının də iştirak etmişlər. Aparılan araşdırma nəticəsində o, Qızılburun nekropolundakı qəbirlərin tipoloji cəhətdən Xocalı-Gədəbəy mədəniyyətinə aid qəbirlərlə oxşarlıq təşkil etdiyini, nekropolda hər iki mədəniyyətə aid arxeoloji materialın olduğunu qeyd etmişdir.[9]

---

[7]Xəlilov F. Naxçıvanı öyrənən elmi cəmiyyət / F.Xəlilov. – Bakı: Nurlan, – 2005. – s. 51.
[8]Алекперов А.К. Поездка в Зангезур и Нахкрай // – Баку: Известия общества обследования и изучения Азербайджана, – 1927. № 4, – с. 212–226.
[9]İsmayılzadə Q., İbrahimli B.İ. Qızılburun nekropolu / Q.İsmayılzadə, B.İbrahimli, – Bakı: Elm və Təhsil, – 2013. – s. 5.

Naxçıvan ərazisindəki Tunc dövrünə aid abidələrin öyrənilməsi sahəsində aparılan arxeoloji tədqiqat işləri XX əsrin 30-cu illərində də davam etmişdir. Ə.K.Ələkbərovun rəhbərliyi ilə 1934, 1936-ci illərdə Şortəpə, Şahtaxtı, Oğlanqala, Qızılburun abidələrində aparılan kəşfiyyat xarakterli tədqiqatlar zamanı sadə və boyalı qablar aşkar olunmuşdu. Tədqiqatçı bu materiallar haqqında 1937-ci ildə "Советская Археология" jurnalının dördüncü sayında çap etdirdiyi "Крашенная керамика Нахичеванского края и Ванское царство" adlı məqaləsində qısa şəkildə, icmal formasında məlumat vermişdir. Məqalədə eyni zamanda Şahtaxtı nekropolundan aşkar edilmiş boyalı qabın təsvirini və təhlilini də vermiş, Naxçıvan diyarında boyalı qabların yayılma arealına aid yeni faktlar ortaya çıxarılmışdır. Şahtaxtı nekropolundan əldə olunmuş qabların Qızılburun-1 qabları ilə oxşarlıq təşkil etdiyini müəyyən edilmişdir. O, Qızılburun nekropolunda aparılan arxeoloji qazıntıların materiallarının təhlilinə əsasən qeyd etmişdir ki, " *...bütün bu nəticələr onu qeyd etməyə əsas verə bilər ki, çox böyük arxeoloji kəşflər qarşısındayıq. Tədqiqatlar zamanı əldə olunacaq yeni nəticələr Cənubi Qafqaz ölkələri ilə Yaxın Şərq ölkələri arasında sıx əlaqələrin olması ilə yanaşı, burada iri mədəni mərkəzlərin olduğunu da sübut edəcəkdir*".[10]

Naxçıvandakı Tunc dövrünə aid arxeoloji abidələrin öyrənilməsi sahəsində geniş miqyasda arxeoloji tədqiqatların aparılmasına XX əsrin ortalarında başlanılmışdır. Bu dövrdə O.H.Həbibullayev tərəfindən 1950-ci ildə Culfa rayonunun Bənəniyar, Ərəfsə, Göydərə, Babək rayonunun Uzunoba, Xəlilli, Vayxır, Sədərək, Qoşadizə, Çalxanqala, Qaraqala kəndlərində kəşfiyyat xarakterli arxeoloji tədqiqatlar aparılaraq bu ərzilərdə Tunc dövrünə aid çoxlu abidənin olduğu müəyyən edilmişdir. I Kültəpə yaşayış yerində 1950-ci ildən etibarən 1953, 1954, 1955-ci illərdə apardığı arxeoloji tədqiqatlar zamanı Naxçıvan diyarının Tunc dövrü dulusçuluq sənətinə aid xeyli maddi mədəniyyət nümunələri aşkar etmişdir. O, 1959-cu ildə nəşr etdirdiyi

[10]Алекперов А.К. Крашенная керамика Нахичеванского края и Ванское царство // – Москва: Советская археология, – 1937. № 4, – с. 249-251.

“Kültəpədə arxeoloji qazıntılar” kitabında onlar haqqında məlumat vermişdir.[11]

XX əsrin 60-cı illərində Naxçıvanın Tunc dövrünə aid abidələrinin bir çoxunda kəşfiyyat xarakterli arxeoloji tədqiqatlar aparılmışdır. I Kültəpə, II Kültəpə, Şahtaxtı Gövürqalası, Şortəpə, Oğlanqala, Qızılburun, Daşarx, Nəhəcir, Vayxır qalası, Çalxanqala və digər abidələrdə O.H.Həbibullayev və V.H.Əliyevin rəhbərliyi ilə aparılmış kəşfiyyat xarakterli arxeoloji tədqiqatlar zamanı Naxçıvan diyarının Tunc dövrü dulusçuluq sənəti ilə bağlı xeyli yeni materiallar aşkar olunmuşdur. Əldə olunmuş arxeoloji materialların əksəriyyətini keramika məmulatları təşkil etmişdir.

Naxçıvanın Tunc dövrü abidələrindən aşkar olunan arxeoloji materiallar xarici tədqiqatçıların da diqqətini cəlb etmişdir. Bəzi tədqiqatçılar Qızılburun boyalı qablarından Tunc dövrü mədəniyyətinin dövrləşdirilməsi üçün mənbə kimi istifadə etmişlər. Bu abidənin saxsı məmulatı digər abidələrdən aşkar olunmuş eyni formalı qabları dövrləşdirmək üçün etalon rolunu oynamışdır. Xarici ölkə tədqiqatçılarından B.A.Kuftin Qızılburundan aşkar edilmiş boyalı keramikanı təhlil edərək N.V.Fyodorov tərəfindən əldə olunmuş materialları Qızılburun-1, İ.İ.Meşşaninov tərəfindən qeydə alınmış materialları Qızılburun-1 bis, A.A.Miller tərəfindən qeydə alınanları isə Qızılburun-2 qruplarına ayırmışdır.[12] B.B.Piatrovski isə həmin materialları birinci, ikinci və üçüncü tipə bölmüşdür.[13] Qızılburundan aşkar edilmiş boyalı qablar ondan sonrakı dövrlərdə arxeoloji abidələrdən aşkar edilmiş eyni formalı keramikaların dövrləşdirilməsində etalon rolunu oynamışdır. Tədqiqatçılardan O.H.Həbibullayev,[14] V.H.Əliyev[15] Qızılburun abidəsindən aşkar olunmuş keramika

---

[11]Абибуллаев О.А. Энеолит и бронза на территории Нахичеванской АССР / О. Абибуллаев. – Баку: Элм, – 1982. – с. 14-15.

[12]Куфтин Б.А. Археологические раскопки в Триалети / Б.Куфтин. – Тбилиси: Издательство АН Грузинской ССР, – 1941. – с. 7-9.

[13]Пиотровский Б.Б. Археология Закавказья / Б.Пиотровский. – Ленинград: Издателство Ленинградского Государственного Университета, – 1949. – с. 49-50.

[14]Həbibullayev O.H. Kültəpədə arxeoloji qazıntılar / O. Həbibullayev. – Bakı: Elm, – 1959. – s. 85, 87, 108.

məmulatlarına əsasən "Boyalı qablar mədəniyyəti"nin xronologiyasını müəyyən etmişlər. V.H.Əliyev ilk dəfə N.F.Fyodorov tərəfindən abidənin məbəd yerindən tapılmış insan fiqurundan da bəhs etmişdir.

Naxçıvan diyarının Tunc dövrü abidələrini öyrənmək üçün XX əsrin 70-80-ci illərində və sonrakı dövrlərdə də arxeoloji tədqiqatlar aparılmışdır. 1971-ci ildə Şahtaxtıda, 1975-ci ildə Plovdağda, 1976-cı ildə Haqqıxlıqda, 1979-cu ildə Gövurqalada, 1981-ci ildə Dəlmədə, 1982-ci ildə Muncuqlutəpədə, 1982-1985-ci illərdə Mərdangöldə, Xalı-Keşanda, 1984-cü ildə Ərəbyengicədə, 1985-ci ildə Qaraçuğda, Dizədə, 1986-cı ildə I Küküdə, I Maxtada, 1987-1988-ci ildə Xələcdə, Ovçulartəpəsində, Qalacıqda, Sarıdərədə, 1989-cu ildə Boyəhməd və digər abidələrdə aparılan arxeoloji tədqiqatlar zamanı Naxçıvanın qdim dövr tarixinə aid xeyli maddi-mədəniyyət nümunəsi aşkar olunmuşdur. Onların əksəriyyəti dulusçu məmulatlarından ibarət olmaqla, Naxçıvan diyarının Tunc dövrü dulusçuluq sənətini öyrənmək üçün mühüm elmi əhəmiyyət daşımışdır.

XX əsrin sonu – XXI əsrin əvvəllərindən etibarən Naxçıvan abidələri geniş şəkildə öyrənilmişdir. Bu dövrdə bir çox abidədə – I Plovdağ, II Plovdağ (Q.M.Aslanov, S.M.Qaşqay, B.İ.İbrahimov), III Plovdağ (B.İbrahimli), Şahtaxtı (V.B.Baxşəliyev, V.H.Əliyev, Q.H. Ağayev, Q.M.Aslanov), Qalacıq (V.H.Əliyev, M.M.Seyidov), Kolanı (V.H.Əliyev, V.B.Baxşəliyev), Haqqıxlıq, Sarıdərə (V.B.Baxşəliyev), I Kükü, II Kükü (V.B. Baxşəliyev, Ə.İ.Novruzlu), Ovçulartəpəsi (V.B.Baxşəliyev, C.Marro, S.H. Aşurov), II Kültəpə (V.H.Əliyev, A.Q.Seyidov), Xələc (A.Q. Seyidov, V.B. Baxşəliyev), I Kültəpə (V.Baxşəliyev, C.Marro) və b. arxeoloji tədqiqatlar aparılaraq Naxçıvan diyarının Tunc dövrü dulusçuluq sənəti ilə bağlı xeyli maddi-mədəniyyət nümunələri aşkar edilmişdir.

2005-ci il dekabrın 6-da imzalanmış "Naxçıvan Muxtar Respublikasının ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında" sərəncamdan sonra aparı-

[15]Əliyev V.H. Azərbaycanda boyalı qablar mədəniyyətinin xronologiyasına dair // – Bakı: Azərbaycanın Maddi Mədəniyyəti, – 1973. c. VII, – s. 161-173; Əliyev V.H. Azərbaycanda tunc dövrünün boyalı qablar mədəniyyəti / V.Əliyev. – Bakı: Elm, – 1977. – s. 46-89.

lan tədqiqatlar, təşkil olunmuş ekspedisiyalar da bu sahədə mühüm elmi əhəmiyyət daşımışdır. Bu zaman apardığımız tədqiqatlar zamanı Naxçıvan Muxtar Respublikasının ərazisində Tunc dövrünə aid bir çox yeni abidələr qeydə alınmış, onlardan xeyli miqdarda keramika məmulatı toplanmışdır.

Ölkə başçısı tərəfindən 2008-ci ilin fevralın 5-də imzalanmış "Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutu tərəfindən aparılması nəzərdə tutulan arxeoloji ekspedisiyaların maliyyələşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" sərəncamından sonra Azərbaycanın digər bölgələrində olduğu kimi, Naxçıvanda da abidələrin öyrənilməsi daha da genişlənmişdir. Bu dövrdə V.B.Baxşəliyevin rəhbərliyi ilə Dəmyələr, Qumluq, İlikliqaya yaşayış yerlərində və nekropollarında apardığımız kəşfiyyat xarakterli arxeoloji qazıntılar zamanı Son Tunc-Erkən Dəmir dövrünə aid xeyli artefaktalar aşkar olunmuşdur. Onların əksəriyyətini keramika məmulatları təşkil etmişdir. 2007-ci ildə A.Q.Seyidovun rəhbərliyi ilə Babək və Culfa rayonlarının ərazisində aparılmış kəşfiyyat xarakterli tədqiqatlarda, 2013-cü ildə V.Baxşəliyevin rəhbərliyi ilə Ərəbyengicə yaşayış yerində, 2009-2019-cu illərdə B.İ.İbrahimlinin rəhbərliyi ilə I Plovdağ, II Plovdağ yaşayış yeri və nekropllarında, III Plovdağ nekropolunda, Sumbatan, Rəsul dərəsi yaşayış yerlərində, Dəlmə qalasında, Xaraba-Gilanda, 2023-cü ildə V.Baxşəliyevin rəhbərliyi ilə Naxçıvantəpə yaşayış yerində aparılmış arxeoloji qazıntılarda yaxından iştirak edərək tədqiqat mövzusu ilə bağlı onlardan xeyli arxeoloji material və təcrübə əldə etməklə, dissertasiya işinin yazılmasında istifadə olunmuşdur.

Müstəqillik dövründə aparılmış tədqiqatlar içərisində beynəlxalq səviyyəli arxeoloji ekspedisiyalar da mühüm əhəmiyyət daşımışdır. Ovçulartəpəsində, I Kültəpədə və digər abidələrdə ABŞ, Fransa və digər xarici ölkə arxeoloqlarının iştirakı ilə aparılmış tədqiqatlar zamanı Naxçıvan diyarının Tunc dövrü dulusçuluq sənəti ilə bağlı xeyli yeni maddi-mədəniyyət nümunələri aşkar olunaraq elmi dövriyəyə daxil edilmişdir. Həm əvvəlki dövrlərdə, həm də son zamanlarda aparılmış arxeoloji tədqiqatların nəticələri bir çox kitab və monoqrafiyalarda, tədqiqat əsərlərində əks olunmuşdur. O.H.Hə-

bibullayev “Kültəpədə arxeoloji qazıntılar” (1959-cu il) monoqrafiyasında abidədən aşkar olunmuş digər arxeoloji materiallarla yanaşı, müxtəlif formalı gil qablar haqqında məlumat vermişdir. 1982-ci ildə nəşr edilmiş “Энеолит и бронза на территории Нахичеванской АССР” monoqrafiyada Naxçıvan diyarının Tunc dövrü abidələrindən aşkar edilmiş boyalı qablar qruplaşdırılmış, I Kültəpə abidəsindən aşkar olunmuş Erkən Tunc dövrünə aid dulusçu kürələri və emalatxanası haqqında məlumatlar verilmişdir. V.H.Əliyev “Azərbaycanda Tunc dövrünün boyalı qablar mədəniyyəti” (1977), “Культура эпохи средней бронзы Азербайджана” (1991) monoqrafiyalarında Azərbaycanın digər bölgələri ilə yanaşı Naxçıvan diyarının Orta və Son Tunc dövrü abidələrindən də bəhs etmiş və “Boyalı qablar mədəniyyəti”nin xronologiyasını müəyyənləşdirmişdir. Tədqiqatçı bu dövrdə yazdığı qeyd olunan monaqrafiyaları ilə yanaşı “Новые материалы о культуре расписной керамики в Азербайджане” (1967-ci il), “Culfa arxeoloji tapıntıları” (1968-ci il), “Maxta zoomorf fiqurları” (1988-ci il), V.B.Baxşəliyevlə birgə yazdıqları “Şahtaxtı nekropolunun yeni tapıntıları” (1985-ci il) və s. elmi məqalələrində də qeyd olunan problemin ayrı-ayrı istiqamətləri haqqında məlumat vermişdir. S.H.Aşurov tərəfindən 2002-ci ildə nəşr olunmuş “Naxçıvanın ilk tunc dövrü keramikası” monoqrafiyasında Tunc dövrünün bütün mərhələlərinin deyil, yalnız Erkən Tunc dövrünün keramikası öyrənilmişdir. V.B.Baxşəliyev 2001-ci ildə O.Belli ilə birlikdə yazdığı “Nahçıvan bölgesinde Orta ve Son Tunc çağı boya bezemeli çanak, çölmek kültürü” kitabında boyalı qablar mədəniyyətinin xronologiyasından, bu tip qabların tipologiyasından bəhs etsə də, sadə qabların və digər keramika məmulatlarının hazırlanma texnologiyasını, naxış motivlərinin semantikasını və digər aktual məslələri qeyd etməmişdir. Yerli tədqiqatçılarla yanaşı xarici ölkə arxeoloqları da Naxçıvan abidələrindən bəhs etmiş, onlardan əldə olunmuş arxeoloji materiallara öz münasibətlərini bildirmişlər. 1927-ci ildə İ.İ.Meşşaninov tərəfindən çap olunmuş “Çinin qədim boyalı qabları”, K.Şefferin 1948-ci ildə nəşr olunmuş “Stratigraphic Comparee et Chronologic de I'Asie Occidentale”, 1941-ci ildə B.A.Kuftin tərəfindən çap edilmiş “Археологические

раскопки в Триалети” adlı əsərlərdə Qızılburun abidəsindən aşkar olunmuş arxeoloji materiallardan bəhs olunur. Qeyd olunan kitab və monoqrafiyalarla birgə digər kitab və monaqrafiyalarda, hesabatlarda, ayrı-ayrı məqalələrdə də Naxçıvan diyarının Tunc dövrü abidələrindən aşkar olunmuş dulusçu məmulatları haqqında məlumatlar verilmişdir. “Şahbuz bölgəsinin arxeoloji abidələri” (V.Baxşəliyev, Ə.Novruzlu, 1992-ci il), “Culfa bölgəsinin arxeoloji abidələri” (V.Baxşəliyev, Ə.Novruzlu, 1993-cü il), “Şərurun arxeoloji abidələri” (V.Baxşəliyev, Ə.Novruzlu, 1993), “Naxçıvanın və Babək bölgəsinin arxeoloji abidələri” (A.Seyidov, Ə.Novruzlu, V.Baxşəliyev, 1995-ci il), “Qıvraq yaylasının arxeoloji abidələri” (V.Baxşəliyev, A.Seyidov, V.Babayev, 1995-ci il), “Naxçıvan arxeologiyası” (V.Baxşəliyev, 1997-ci il), “Tarixdən səhifələr” (A.Seyidov, 1999-cu il) “Naxçıvan Tunc dövründə” (A.Seyidov, 2000-ci il), “Naxçıvanın ilk tunc dövrü abidələri və onların dövrləşdirilməsi” (A.Seyidov, 2000-ci il), “Şahtaxtı Son Tunc-Erkən Dəmir dövründə” (Q.Ağayev, 2002-ci il), “Xaraba Gilanın qədim nekropolları” (Q.Aslanov, B.İbrahimov, S.Qaşqay, 2003-cü il), “Nəhəcirdə arxeoloji araşdırmalar” (A.Seyidov, V.Baxşəliyev, 2002-ci il), “Naxçıvan e.ə. VII-II minilliklərdə” (A.Seyidov, 2003-cü il), “Qədim Sədərək” (N.Müseyibli, 2003-cü il), “Naxçıvanın qədim tayfalarının mənəvi mədəniyyəti” (V.Baxşəliyev, 2004-cü il), “Ovçulartəpə” (V.Baxşəliyev, C.Marro, S.Aşurov, 2010-cu il), “Son Tunc-Erkən Dəmir dövründə Naxçıvanın əkinçi-maldar tayfalarının mədəniyyəti” (T.Xəlilov, 2010-cu il) “Qədim Ordubad” (V.Baxşəliyev, A.Seyidov, Q.Qədirzadə, B.İbrahimli, 2014-cü il) və s. kitab və monoqrafiyaları buna nümunə göstərmək olar. Qeyd olunan tədqiqat əsərlərində, kitab və monoqrafiyalarda, hesabatlarda Naxçıvandakı Tunc dövrünə aid olan arxeoloji abidələr, bu abidələrdən aşkar olunmuş artefaktlar haqqında məlumat verilsə də, Naxçıvanın Tunc dövrü dulusçuluq sənəti kompleks şəkildə öyrənilməmişdir. Buna görə də, bu məsələ tərəfimizdən tədqiqata cəlb edilmişdir. Tədqiqat zamanı arxeoloji ədəbiyyatdan, arxeoloji qazıntıların hesabatlarından, Azərbaycan Milli Tarix Muzeyinin, Naxçıvan Dövlət Tarix Muzeyinin, Şərur rayon Tarix-Diyarşünaslıq Muzeyinin, AMEA Naxçıvan Bölməsi Muzeyinin ar-

xeoloji fondunda saxlanılan materiallardan, xarici tədqiqatçıların da əsərlərindən istifadə edilmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Naxçıvan diyarının Tunc dövrü dulusçuluq sənətini öyrənmək əsas tədqiqat obyektidir. Dulusçuluq sənəti ilə bağlı olan maddi mədəniyyət nümunələri tədqiqatın predmetini təşkil edir. Onlar gil qablardan və digər keramika məmulatlarından, dulus kürəsinin, emalatxanasının qalıqlarından, dulusçular tərəfindən istifadə olunan əmək alətlərindən, yanaçaq vasitələrindən və s. ibarətdir. Tədqiqat zamanı keramika məmulatlarının hazırlanma texnologiyası, təyinatı, tipoloji xüsusiyyətləri, naxış motivi şərh edilərək geniş müqayisəli təhlilə cəlb olunmuş, dülusçu emalatxanalarının, kürələrin quruluşu, dulusçuların istifadə etdiyi əmək alətləri və digər aktual məsələlər öyrənilmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat zamanı qarşıya qoyulmuş əsas məqsəd arxeoloji materiallar əsasında Naxçıvan diyarının Tunc dövrü dulusçuluq sənətini sistemli, kompleks şəkildə öyrənməkdir. Bu zaman aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur:

– Naxçıvan Muxtar Respublikasının muzeylərində, arxeoloji ədəbiyyatlarda, hesabatlarda olan Tunc dövrünə aid dulusçu məmulatlarını sistemləşdirərək onları kompleks şəkildə öyrənmək;

– Arxeoloji abidələrdən aşkar olunmuş dulusçuluq məmulatlarını təhlil edərək, dulusçuluğun formalaşması prosesini, dulusçu məmulatlarının yayılma arealını müəyyən etmək;

– Dulusçu məmulatlarının hazırlanma texnologiyasını öyrənmək, onların hazırlanması zamanı tətbiq olunan texniki üsulları müəyyən etmək;

– Keramika məmulatlarının təsnifatını vermək, onların təyinatını, tipoloji xüsusiyyətini öyrənmək;

– Keramika məmulatlarının naxış motivlərini öyrənmək, onların semantikasını, yayılma arealını müəyyən etmək;

**Tədqiqat metodları.** Tədqiqat zamanı sistemləşdirmə, tipoloji təsvir, müqayisəli təhlil, elmi-nəzəri təhlil və ümumiləşdirmə metodlarından istifadə edilmişdir. Azərbaycan alimləri ilə yanaşı digər tədqiqatçıların, dünya arxeoloqlarının təcrübələri də əsas götürülmüş-

dür. Son dövrlərdə nəşr olunmuş arxeoloji ədəbiyyata, dövrü mətbuat materiallarına, internet resurslarına, hesabatlara və muzey materiallarına üstünlük verilərək Naxçıvan diyarının Tunc dövrü dulusuçuluq sənəti yeni elmi tələblərə uyğun, sistemli şəkildə öyrənilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.**

– Neolit dövründə meydana çıxan dulusçuluq Tunc dövründə ixtisaslaşmış sənət sahəsi olmuşdur.

– Naxçıvan diyarının Tunc dövrü arxeoloji abidələrində dulusçuluq sənəti ilə bağlı aşkar olunmuş arxeoloji materialların içərisində gil qablar geniş yayılmışdır. Bəzi abidələrdə qablarla yanaşı gildən düzəldilmiş heyvan və insan fiqurları, miniatür təkər modeli, dulusçu kürəsi və emalatxanası, dulusçuların istifadə etdiyi yanacaq vasitəsi, əmək aləti və digər arxeoloji materiallar aşkar olunmuşdur.

– Dulusçular tərəfindən hər hansı bir məhsul təsadüfən hazırlanmamış, müəyyən məqsədlə istifadə edilmişdir. Onlar müxtəlif emalatxanalarda ayrı-ayrı dulusçular tərəfindən hazırlandığı üçün bir-birindən fərqlənmişdir.

– Keramika istehsalı üçün zəruri olan əsas xammal Naxçıvan diyarının gil yataqları olmuşdur. Onları düzəltmək üçün hər bir dulusçu tərəfindən bir çox texnoloji proseslər ardıcıl şəkildə yerinə yetirilmişdir. Bu zaman müxtəlif metodlardan və əmək alətlərindən istifadə olunmuşdur.

– Hər bir keramika məmulatının hazırlanmasında dulusçuların sənətkarlıq qabiliyyəti əsas yer tutmuşdur. Qabların üzərinin müxtəlif ornamentlərlə (həndəsi, zoomorf, antropomorf və s.) bəzədilməsində dulusçuların sənətkarlıq qabiliyyəti ilə yanaşı, bədii-estetik düşüncə tərzi, təxəyyülü və dini-ideoloji görüşləri mühüm yer tutmuşdur. Naxışların bir qismi özünəməxsus xüsusiyyəti ilə seçilmiş, geniş yayılma arealına malik olmuşdur.

– Erkən Tunc dövrünün keramika məmulatlarında Eneolit dövrü mədəniyyətinə aid bəzi əlamətlərin olması Kür-Araz mədəniyyətinin Eneolit mədəniyyəti zəminində formalaşdığını sübut edən arxeoloji materiallardır. Keramika məmulatlarının qədim nümunələrinin e.ə. 4200-3400-cü illəri əhatə etməsi Naxçıvanda Kür-Araz mədəniyyətinin formalaşması tarixinin qədim olduğunu sübut edir.

– Orta Tunc dövründə dulusçuluq müstəqil, ixtisaslaşmış sənət sahəsinə çevrilmişdir. Bu dövrün keramika məmulatı üzərindəki ornamentlərin bəziləri Erkən Tunc dövrünün materialları ilə bənzərlik təşkil etsə də, bir qrupu yeni yaranmış, Orta Tunc dövrü mədəniyyətinə  xas olmuşdur. Orta Tunc dövrü e.ə. III minilliyin ikinci yarısından – e.ə. II minilliyin sonlarına qədər davam etmiş, Erkən, Orta və Son mərhələlərdən ibarət olmuşdur. Boyalı qablar bu dövrün keramika məmulatları içərisində mühüm yer tutmuşdur. Azərbaycanın digər bölgələrindən fərqli olaraq Naxçıvanda boyalı qablarla təmsil olunan abidələrin çoxluğu, onların həm yaşayış yerlərində, həm də qəbir abidələrində qeydə alınması, bu bölgədə həm monoxrom (birrəngli), həm də polixrom (çoxrəngli) rəngli boyalı qabların geniş yayılması Naxçıvan diyarının "Boyalı qablar mədəniyyəti"nin əsas mərkəzlərindən biri olmasını sübut edir.

– Orta Tunc dövründə olduğu kimi, Son Tunc-Erkən Dəmir dövründə də dulusçuluq sənəti öz varlığını qoruyub saxlamış, boyalı qablar geniş yayılmışdır. Son Tunc dövrü e.ə.1400-1200-cü, Erkən Dəmir dövrü isə e.ə. 1200 – e.ə. 900-cü illəri əhatə etmişdir. Bu dövrün boyalı qabları polixrom (çoxrəngli) rəngli düzəldilmişdir. Bu qabların bir qismində Orta Tunc dövrünün ənənələri davam etdirilmiş, bəziləri Yaxın Şərq və Xocalı-Gədəbəy mədəniyyətinə aid xüsusiyyətlərə malik olmuşdur.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat zamanı aşağıdakı elmi yeniliklər əldə edilmişdir:

1. İşdə Naxçıvan diyarının Tunc dövrü dulusçuluq məmulatları sistemləşdirilərək monoqrafik şəkildə tədqiqata cəlb edilmişdir.

2. Arxeoloji materialların təhlili nəticəsində hər bir mərhələnin dulus məmulatı ayrı-ayrılıqda öyrənilərək dulusçuluğun Tunc dövründəki vəziyyəti, xüsusiyyəti, inkişaf prosesi ilə bağlı yeniliklər ortaya çıxarılmışdır. Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, Naxçıvan ərazisində keramika istehsalı üçün kifayət qədər keyfiyyətli gil yataqlarının olması dulusçuluq sənətinin inkişafında mühüm yer tutmuşdur. Tunc dövrünün bütün mərhələlərində dulusçular tərəfindən gil qablar və digər keramika məmulatları yerli xammaldan hazırlanmışdır.

3. Erkən Tunc dövrü abidələrindən aşkar olunmuş Proto-Kür Araz keramikasına əsasən bu mədəniyyətin Eneolit mədəniyyəti ilə bağlılığı bir daha sübut edilmişdir. Naxçıvanın Kür-Araz mədəniyyətinin ən qədim yaranma mərkəzlərindən biri olduğu, bu mədəniyyətin Eneolit mədəniyyətindən qaynaqlanaraq meydana çıxdığı və inkişaf etdiyi müəyyən edilmişdir.

4. Orta Tunc dövrü keramikasının tədqiqi nəticəsində müəyyən edilmişdir ki, bu dövrdə boyalı qablar geniş yayılmış, onların çeşidi çox olmuş və bu proses müxtəlif inkişaf mərhələlərindən keçmişdir. Şərqi Anadolu və Urmiya hövzəsi ilə yanaşı Naxçıvan da "Boyalı qablar mədəniyyəti"nin əsas mərkəzlərindən biri olmuşdur. Naxçıvan dulusçuları tərəfindən düzəldilmiş boyalı qablar Cənubi Qafqaz, Şərqi Anadolu və Urmiya hövzəsinin qabları ilə oxşarlıq təşkil etsə də, müəyyən lokal xüsusiyyətlərinə görə onlardan yerli dulusçuluq məhsulu kimi fərqlənir.

5. Arxeoloji materialların təhlili nəticəsində müəyyən edilmişdir ki, Orta Tunc dövründə olduğu kimi, Son Tunc-Erkən Dəmir dövründə də boyalı qablardan geniş istifadə edilmişdir. Həm boyalı, həm də, boyasız qablar yerli dulusçu emalatxanalarında düzəldilmişdir. Onların hər biri özünəməxsus xüsusiyyəti ilə seçilmişdir. Bu qabların bir qismində Orta Tunc dövrünün ənənələri ilə yanaşı Xocalı-Gədəbəy mədəniyyətinə aid xüsusiyyətlərin olması Boyalı qablar və Xocalı-Gədəbəy mədəniyyətinə aid komplekslər arasında ortaq xüsusiyyətlərin olduğunu göstərir.

6. Arxeoloji materialların təhlili nəticəsində müəyyən edilmişdir ki, Tunc dövrünün bütün mərhələlərində hər bir keramika məmulatı təsadüfən hazırlanmamış, müxtəlif məqsədlər üçün istifadə edilmişdir. Onlar müxtəlif dulusçu emalatxanasının məhsulu olduğu üçün forma və xüsusiyyətinə görə bir-birindən fərqlənmişdir. Keramika məmulatlarının düzəldilməsi, onların üzərindəki naxış motivləri dulusçuların sənətkarlıq qabiliyyəti, bacarıq və vərdişləri ilə bağlı olmuşdur. Hər bir naxış motivi müəyyən semantik məna daşımışdır. Onların bəziləri prototürk mədəniyyətinin damğaları, simvolları ilə bənzərlik təşkil edir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat işində əldə olunmuş nəticələr Azərbaycan tarixində özünəməxsus yer tutur və mühüm elmi əhəmiyyət daşıyır. Dissertasiya işinin materiallarından Naxçıvanın qədim dövr tarixinin öyrənilməsində, elmi-tədqiqat işlərinin, ümumləşdirici əsərlərin yazılmasında, seçmə kursların tədrisində istifadə oluna bilər.

**Dissertasiya işinin aprobasiyası və tətbiqi.** İş 15 yanvar 2015-ci ildə AMEA Naxçıvan Bölməsinin Rəyasət Heyətinin qərarı ilə təsdiq edilmişdir. Mövzunun təsdiqindən əvvəl də tərəfimizdən bu istiqamətdə araşdırma aparılmışdır. Tədqiqat dövründə I və II Plovdağ yaşayış yeri və nekropolunda, III Plovdağ, Sumbatan, Rəsul dərəsi, Ərəbyengicə, Naxçıvantəpə yaşayış yerlərində, Dəlmə qalasında, Xaraba Gilan şəhər yerində aparılan arxeoloji qazıntılarda, iki qrant layihəsində iştirak edilmişdir. Tədqiqat işi ilə bağlı Azərbaycan Respublikasının Prezidenti Yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi dövri elmi nəşrlərdə 1 monoqrafiya, 60 elmi məqalə çap edilmiş, Azərbaycanla yanaşı, Türkiyə, Rusiya, Qazaxıstan, Özbəkistan və digər ölkələrdə keçirilən beynəlxalq səviyyəli konfrans və simpoziumlarda, seminar-larda elmi məruzələr edilmişdir. Tədqiqat işi ilə bağlı dərc edilmiş elmi məqalələrə xeyli istinadlar olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı**. Dissertasiya işi AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun "Antik və Orta əsrlər arxeologiyası" şöbəsində yerinə yetirilmişdir.

**Dissertasiya işinin quruluşu və həcmi.** Dissertasiya işi giriş, dörd fəsil, nəticə və istifadə edilmiş ədədbiyyat siyahısından ibarətdir. İşə illüstrasiyalar, ixtisarlar və cədvəllər də əlavə olunmuşdur. Dissertasiya işinin girişi 4162 söz, 3102 işarədən, birinci fəsli 15607 söz, 104057 işarədən, ikinci fəsli 18450 söz, 123044 işarədən, üçüncü fəsli 14601 söz, 96908 işarədən, dördüncü fəsli 17838 söz, 119893 işarədən, nəticə hissəsi 3806 söz, 26232 işarədən ibarətdir. Dissertasiyanın həcmi 256 səhifədən, 74464 sözdən və 473236 işarədən ibarətdir.

# DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **“Giriş”** hissəsində mövzunun aktuallığı əsaslandırılmış, öyrənilmə səviyyəsi, müdafiəyə çıxarılan əsas müddəalar, tədqiqatın elmi yeniliyi, obyekti, predmeti, məqsəd və vəzifələri, nəzəri-praktiki əhəmiyyəti, metodları, aprobasiyası, quruluşu haqqında məlumat verilmişdir.

Dissertasiyanın birinci fəsli **“Dulusçuluğun meydana çıxması və texnologiyası”** adlanır. Bu fəsil iki paraqrafdan ibarətdir. **“Dulusçuluğun meydana çıxması prosesi”** başlıqlı paraqrafda aparılan araşdırmaların nəticəsi kimi, dulusçuluğun qədim Naxçıvan sakinlərinin ən vacib sənət sahələrindən biri olması müəyyən edilmişdir. Saxsı məmulatlarının hazırlanması ilə dulusçuluğun əsası qoyulmuşdur. Azərbaycanın bütün bölgələrində olduğu kimi, Naxçıvan diyarında da Neolit dövrünün ikinici mərhələsindən (e.ə. VII minillik) etibarən insanlar saxsl məmulatları düzəltməyi bacarmışlar. Naxçıvanda saxsı istehsalı üçün kifayət qədər keyfiyyətli gil yataqlarının olması dulusçuluq sənətinin inkişafına təkan vermişdir. İlk əvvəl qablar və digər saxsı məmulatları təkibində saman qarışığı, iri qum dənələri olan gildən səliqəsiz, keyfiyyətsiz düzəldilmişdir. Dulusçuluğun Neolit dövründə başlayan formalaşma prosesi sonrakı dövrlərdə inkişaf etmişdir. Eneolit dövründə dulusuçuluğun inkişafı nəticəsində əvvəlki dövr ilə müqayisədə keramika məmulatlarının çeşidi çoxalmış, onların keyfiyyətində, naxışlanma üsulunda və digər xüsusiyyətlərində dəyişikliklər baş vermişdir.

Neolit dövründən fərqli olaraq, bu dövrdə dulusçular tərəfindən boyalı, cilalı, anqoblu qablar da düzəldilmişdir. I Kültəpədə[16] Neolit

[16]Həbibullayev O.H. Kültəpədə arxeoloji qazıntılar / O. Həbibullayev. – Bakı: Elm, – 1959. – s. 58; Абибуллаев О.А. Энеолит и бронза на территории Нахичеванской АССР / О.Абибуллаев. – Баку: Элм, – 1982. – s. 24; Baxşəliyev V.B., Catherine M., Berton R., Quliyeva Z., Savaş S. Kültəpədə arxeoloji qazıntılar (2013-2016) / V.Baxşəliyev, M.Catherine, R.Berton [və b.] – Bakı: Nurlan, – 2017. – s. 7-31.

dövrünə, Xələc,[17] Sədərək,[18] Ovçulartəpəsi,[19] Naxçıvantəpə[20] abidələrində Eneolit dövrünə aid xeyli miqdarda gil qablar aşkar olunmuşdur.

Tunc dövründə dulusçuluğun ixtisaslaşmış sənət sahəsinə çevrilməsi nəticəsində keramika məmulatlarının keyfiyyəti yaxşı olmuş, çeşidi çoxalmışdır. Bu dövr ayrı-ayrı mərhələlərdən ibarət olduğu üçün, bütün mərhələlərin dulusçuluq məmulatları eyni olmamışdır. Hazırlanma texnologiyasına, formasına, naxış motivinə görə onlar bir-birindən fərqlənmişdir.

Birinci fəslin **"Dulus məmulatının hazırlanma texnologiyası"** başlıqlı ikinci paraqrafında keramika məmulatlarının hazırlanmasında istifadə olunan xammal, bu xammalın seçilməsi üsulu, onların hazırlanması metodu, dulusçuların istifadə etdikləri əmək alətləri, yanacaq vasitələri və digər aktual məsələlər tədqiq edilir. Aparılan araşdırmalar zamanı müəyyən edilmişdir ki, bütün dövrlərdə olduğu kimi Tunc dövründə də dulusçular tərəfindən keramika məmulatlarının düzəldilməsi prosesi bir neçə mərhələdən ibarət olmuşdur. Hər hansı bir saxsı məmulatı düzəldilərkən dulusçular tərəfindən zəruri olan müəyyən qaydalara əməl edilmiş, bir sıra texnoloji proseslər ardıcıl şəkildə yerinə yetirilmişdir. Saxsı məmulatının hazırlanması üçün yararlı olan keyfiyyətli xammalın seçilməsi, onun tədarük edilməsi, həmin xammaldan palçıq xəmirinin hazırlanması, sonra müxtəlif metodlarla məhsulların düzəldilməsi, qurudulması və bişirilməsi texnoloji proseslərdir.

Gil, saxsı istehsalı üçün yararlılıq səviyəsinə, keyfiyyətinə və kimyəvi tərkibinə görə iki qrupa bölünür. Birinci qrupa su ilə asanlıqla yoğrulan, yoğrulduğu zaman dağılmadan formalaşan, quru-

---

[17]Baxşəliyev V.B. Xələc keramikasının xüsusiyyətləri // – Naxçıvan: Naxçıvan Universitetinin Elmi əsərləri, – 2020. № 16, – s. 156-161.
[18]Seyidov A.Q., Baxşəliyev V.B. Sədərək / A.Q.Seyidov, V.B. Baxşəliyev. – Bakı: Elm, – 2011, – s.19-31.
[19]Seyidov A.Q, Baxşəliyev V.B, Məmmədov S.M, Aşurov S.H. Qədim Şərur / A.Q.Seyidov, V.B. Baxşəliyev, S.Məmmədov. – Bakı: Elm, – 2012. – s. 23-25.
[20] Baxşəliyev V., Naxçıvantəpə yaşayış yerində arxeoloji qazıntılar // – Naxçıvan: AMEA Xəbərlər, 2018. № 1, – s. 80-85.

duqdan sonra formasını saxlayan xam maddələr daxildir. İkinci qrupa su ilə asanlıqla yoğrulmayan, yoğrulduğu zaman dağılan, formalaşmayan, quruyarkən formasını saxlamayan xam maddələr aiddir. Naxçıvan Muxtar Respublikasının ərazisində saxsı məmulatlarını düzəltmək üçün yararlı olan xeyli gil yataqları vardır. Belə gil yataqları muxtar respublikanın bir çox yerlərində qeydə alınmışdır. Şahbuz, Naxçıvan, Babək, Yaycı, Dəstə, Ordubad, Sədərək, Tumbul, Çeşməbasar, Pirigöl gil yataqlarını buna nümunə göstərmək olar. Bu gil yataqlarında aparılan araşdırmalar nəticəsində onların keramika istehsalı üçün yaralılıq səviyyəsi öyrənilmişdir. Şahbuz gil yatağında 1988-1991-ci illərdə İ.Ə.Məmmədov və Ə.Ə.Əsgərov, Naxçıvan gil yatağında 1957-1958-ci illərdə T.M.Seyidov, 1969-cu ildə D.A.İsmayılov, Babək gil yatağında 1988-1991-ci illərdə F.A.Mustafayev, Dəstə gil yatağında 1988, 1990-1993-cü illərdə İ.Ə.Məmmədov və Ə.Ə.Əsgərov, Çeşməbasar gil yatağında 1980-ci ildə T.M.Seyidov və İ.Ə.Məmmədov, 1981-ci illərdə M.K.Əliyev, 1982-1983-cü illərdə M.K.Əliyev və R.M.Ağayev, Pirigöl gil yatağında 1979-cu illərdə T.M.Seyidov, O.İ.İsmayılov və İ.Ə.Məmmədov tərəfindən tədqiqatlar aparılaraq, onların saxsı istehsalı üçün yararlı olduğu müəyyən edilmişdir[21]. Naxçıvan Muxtar respublikasının ərazisində incə keramika istehsalı üçün əsas xammal olan çini daş yataqları da aparılan araşdırmalar zamanı qeydə alınmışdır. İlk dəfə belə xammal T.M. Seyidov tərəfindən 1976-ci ildə Zəngəzur silsiləsində aşkar olunmuşdur. 1985-1988-ci illərdə də çini daş yataqlarının qeydə alınması ilə bağlı araşdırma aparılmışdır. İ.Ə.Məmmədov və Ə.Ə.Əsgərov tərəfindən aparılmış tədqiqat işləri nəticəsində Şahbuz rayonu ərazisində bir neçə yerdə – Kükü, Qanlı göl, Vəlişəkən-Qarababayurd, Ortayal, Ağqaya, Qışlaq və Batabatda da çini daş yataqları qeydə alınmışdır. Onlardan götürülmüş süxurların mikroskop, termoqram analizi nəticəsində müəyyən olunmuşdur ki, Küküdəki sü-

[21]Məmmədov İ.Ə. Naxçıvan Muxtar Respublikasının qeyri-metal faydalı qazıntıları / İ.Məmmədov. – Bakı: Elm, – 2012. – s. 150-160; Nağıyev V.N., Məmmədov İ.Ə. Naxçıvan Muxtar Respublikasının faydalı qazıntıları / V.Nağıyev, İ.Məmmədov, – Bakı: Elm, – 2010. – s. 175-180.

xurlar qalluazit, kaolin və kvars minerallarından ibarətdir. Kaolinləşmiş süxurlar andezit və andezit-dasitlərin hesabına yaranmışdır. Kaolinləşmiş süxur zonası açıq-boz, ağ və sarımtıl-boz rəngi ilə ətraf süxurlardan kəskin ayrılır. Onun tərkibində $SiO_2$-nin miqdarı 67,0-76,5 %; $Al_2O_3$-12,1-14,5 %; $Fe_2O_3$-0,80-1,75 %; $TiO_2$-0,06-0,14 %; CaO-0,28-1,12 %; MgO-0,1-1,56 %; $K_2O$-4,32-5,34 %; $Na_2O$-1,68-3,22 %; $SO_3$-0,04 %-dir. FeO+$Fe_2O_3$ və $TiO_2$ rəngləyici maddələrdir. Batabat süxuru attapulqit və kaolinit minerallarından təşkil olunmuşdur. Süxurun tərkibində $SiO_2$-nin miqdarı 67,8-74,0 %; $Al_2O_3$-12,8-13,8 %; $Fe_2O_3$-0,8-1,6 %; $TiO_2$-0,11-0,17 %; CaO-0,56 -1,55 %; MgO-0,61-1,42 %; $K_2O$-4,6-5,36 %; $Na_2O$-1,6-2,8 %; $SO_3$<0,04 % olmuşdur.[22]

Saxsı məmulatları əldə və dulus çarxında düzəldilmişdir. Dulus çarxından fərqli olaraq, əldə hər hansı bir nümunəni düzəltmək bir qədər çətin olmuş, onun hazırlanmasına daha çox vaxt və bacarıq tələb olunmuşdur. Qabları əldə düzəldərkən dulusçular tərəfindən əl barmaqlarının və əlin kəfəsinin köməyi ilə palçıq xəmiri yastılanaraq lövhə, fitil halına salınmış, əldə dartılaraq uzadılmış, qəlib, bad kimi müxtəlif üsullardan istifadə edilmişdir. Dulus çarxında qabların hazırlanması bu sənət sahəsinə mühüm təsir göstərmiş, onun daha da inkişaf etməsinə səbəb olmuşdur. Bu üsul ilə düzəldilmiş qablar daha keyfiyyətli olmuşdur.

Naxçıvan diyarının Tunc dövrü abidələrindən heç birində hələlik dulus çarxına aid arxeoloji material, maddi mədəniyyət nümunəsi tapılmayıb. Lakin qabların səliqəli və simmetrik hazırlanması, onların üzərində dulus çarxının izlərinin olması onu deməyə əsas verir ki, Tunc dövründə Azərbaycanın digər bölgələrində olduğu kimi, Naxçıvan diyarında da dulus çarxından istifadə edilmişdir. Son dövrlərdə ölkəmizdə aparılan arxeoloji tədqiqatlar zamanı Leylatəpə,[23] I Böyük

[22]Nağıyev V.N., Məmmədov İ.Ə. Naxçıvan Muxtar Respublikasının faydalı qazıntıları / V.Nağıyev, İ.Məmmədov, – Bakı: Elm, – 2010. – s. 119-122.
[23]Нариманов И.Г., Ахундов Т.И., Алиев Н.Г. Лейлатепе / И.Г.Нариманов, Т.И.Ахундов, Н.Г. Алиев. – Баку: Шарг-Гарб, – 2007 – с. 16.

Kəsik[24] yaşayış yerlərində Eneolit dövrünə aid dulus çarxının hissələrinin tapılması dulusçuların Tunc dövründən əvvəl də onlardan istifadə etdiyini sübut edir.

Hər hansı bir saxsı məmulatı düzəldilərkən müxtəlif formalı əmək alətlərindən istifadə edilmişdir. Onların üzərindəki naxış motivləri, bu motivlərin, səliqəli və ya səliqəsiz olması dulusçuların bacarıq və vərdişlərindən asılı olmuşdur. Hər bir dulusçu özünün bacarıq və vərdişlərinə görə müxtəlif formalı əmək alətlərindən istifadə etmişdir. Qabların üzərinin naxışlanmasında oyma, qazma, cızma, basma, qabartma, yapma, ştamp üsullarından, məməcikşəkilli çıxıntılardan, şiş, yuvarlaq qabartmalardan və s. istifadə edilmişdir. Oyma, qazma, cızma üsulu bişmiş qabın üzərində retuş (hamarlama) işləri aparıldıqdan sonra icra olunmuşdur. Cızma üsulu ilə əsasən sadə həndəsi naxışlar çəkilmişdir. Çərtmə üsulu ilə qabın ağzının kənarı, gövdəsi naxışlanmışdır. Oyma və qazma üsulları qab bişdikdən sonra, cızma üsulu isə qab bir qədər quruduqdan (yarınəm) sonra icra edilmişdir. Cızma üsulu kimi basma, yapma üsulları da bişməmiş yarı nəm keramika məmulatının naxışlanmasında istifadə edilmişdir. Basma üsulu ilə qabın üzərinə əsasən relyefik, kəmərvari və dairəvi naxışlar vurulmuşdur. Yapma üsulu da basma üsulu kimi yarı nəm qabın üzərində icra edilmişdir. Lakin ondan fərqlənmiş, bir qədər çox vaxt aparmışdır. Yapma üsulu ilə əsasən iri qabların üzəri naxışlanmışdır. Onlar şiş və kəmərvari şəkildə olmuşdur. Qabın üzərinə hər hansı bir yapma bəzək vurarkən onun səliqəli formada yapışmasına, quruduqdan sonra qopmamasına diqqət yetirilmişdir. Ştamp üsulu basma üsuluna bənzəsə də, ondan fərqlənmişdir. Bu üsul ilə naxış vurarkən öncə dulusçu tərəfindən qabın üzərinə vurulacaq naxışın eskizi çəkilmişdir. Eskiz hazır olduqdan sonra onu yarı nəm qabın üzərinə basaraq naxış vurmuşlar. İstər əldə, istərsə də dulus çarxında qablar düzəldildikdən sonra onların düzgün qurudulmasına və

---

[24]Müseyibli N. Eneolit dövrü I Böyük Kəsik yaşayış məskənində arxeoloji qazıntıların nəticələri // – Bakı: Azərbaycan arxeologyası və etnoqrafiyası, – 2006. № 1, – s. 11-27; Hüseynov M.M. Böyük Kəsik yaşayış yerindən aşkar olunmuş daş məmulatı // – Bakı: Azərbaycan arxeologyası və etnoqrafiyası, – 2007. № 1, – s. 34.

bişirilməsinə diqqət yetirilmişdir. Hər bir keramika məmulatının qurumasında hazırlanmış məhsulun həcmi, qalınlığı, gilinin tərkibindəki mineral xam maddələr, hansı fəsildə qurudulması, qurudulan yerin şəraiti (istiliyi, rütübətliliyi və s.) nəzərə alınmışdır. Hava isti oduğu dövrlərdə onları açıq yerdə, soyuq olduqda isə, örtülü yerlərdə, emalatxanada qurutmuşlar. Onlar tələb olunan səviyyədə quruduqdan sonra kürədə bişirilmişdir. Öncə kürədə az istiliyin olması üçün odu zəif yandırmışlar. Sonra odu tədricən artıraraq, kürədəki istiliyi qabların bişmə səviyyəsinə qədər yüksəltmişlər. Məhsul bişdikdən sonra onun soyumasını gözləmiş, sonra kürədən çıxarmışlar. Dulus kürələrində od qalanan yanma kamerası (ocaqxana), bişmə kamerasından ayrı olmuşdur. Bişmə kamerası (qabxana) yanma kamerasından (ocaqxanadan) yuxarıda yerləşmişdir. İstiliyin düzgün tənzimlənməsi üçün kürələrin üst hissəsində və bişmə kamerası ilə yanma kamerası arasında kiçik deşiklər (dudkeş) qoyulmuşdur. Naxçıvan diyarının Tunc dövrü abidələri içərisində I Kültəpə və II Kültəpə yaşayış yerlərində nisbətən salamat qalmış,[25] Şortəpə və Çalxanqala yaşayış yerlərində isə[26] dağılmış dulus kürəsinin qalıqları aşkar edilmişdir. Onlar Erkən və Orta Tunc dövrünə aid olmuşlar. Erkən Tunc dövrünə aid dulusçu kürəsinin qalığı I Kültəpə abidəsinin üçüncü, dördüncü və beşinci[27], II Kültəpə yaşayış yerinin yeddinci və on birinci tikinti qatlarında qeydə alınmışdır.[28] Şortəpədə və Çalxanqalada aşkar olunmuş dulusçu kürələri Orta Tunc dövrünə aid olmuşdur. II Kültəpə yaşayış yerində Orta Tunc dövrünə aid dulusçu kürələri həm əvvəlki dövrlərdə, həm də, son zamanlarda qeydə alınmışdır.[29] Bu abidədə

---

[25]Абибуллаев О.А. Энеолит и бронза на территории Нахичеванской АССР / О.Абибуллаев. – Баку: Элм, – 1982. – s. 87-90; Алиев В.Г. Культура эпохи средней бронзы Азербайджана / – В.Алиев. – Баку: Элм, – 991. – с. 18, 31.

[26]Алекперов А.К. Исследование по археологии и этнографии Азербайджана / А.Алекперов. – Баку: Издательство АН Азербайджанской ССР, – 1960. – с. 55.

[27]Абибуллаев О.А. Энеолит и бронза на территории Нахичеванской АССР / О.Абибуллаев. – Баку: Элм, – 1982. – с. 87-90.

[28]Seyidov A.Q. Naxçıvan Tunc dövründə / A.Seyidov. – Bakı: Elm, – 2002, – s. 32, 39.

[29]Əliyev V.H. Azərbaycanda tunc dövrünün boyalı qablar mədəniyyəti / V.Əliyev. – Bakı: Elm, – 1977. – s. 26-28; Əliyev V.H. Qədim Naxçıvan / V.Əliyev. – Bakı:

Orta Tunc dövrünə aid dulusçu kürələri ilə yanaşı dulusçu emalatxanasının qalıqları da aşkar edilmişdir. Kürələr oda davamlı gildən, möhrədən və bişmiş kərpicdən dairəvi formada tikilmişdir. Emalatxanaların tikintisində bişmiş kərpiclə yanaşı, çay daşlarından da istifadə edilmişdir. Onlar dördkünc planda tikilmişdir.

Tunc dövrünün saxsı məmulatı boz, çəhrayı, qara, qəhvəyi və s. rəngli olmuşdur. Onlar cilalı, cilasız, anqoblu, anqobsuz hazırlanmışdır. Boyasız qablar Tunc dövrünün bütün mərhələlərində, boyalı qablar isə Orta və Son Tunc-Erkən Dəmir dövründə geniş yayılmışdır. Qara cilalı keramikalar və üzərində yarımşar formalı qulpu olan qablar Erkən Tunc dövrü mədəniyyətinin əsas xarakterik xüsusiyyətlərindən birini təşkil etmişdir. Saxsı məmulatları hazırlandığı palçıq xəmirinin tərkibindən, üzərinə çəkilmiş rəngli anqobdan və boyadan asılı olaraq müxtəlif rəngli olmuşdur. Onlar kürədə bişirilən zaman hazırlandığı palçıq xəmirinin tərkibindəki üzvi və qeyri üzvi maddələrdə müəyyən kimyəvi reaksiya getdiyi üçün, qablar müxtəlif rəngə çevrilmişdir.

Anqobdan gil qabların üzərindəki məsamələri örtmək, səthini hamarlamaq, keyfiyyətini artırmaqla yanaşı, üzərini bəzəmək üçün də istifadə etmişlər. Anqoblu qabların su keçirməməzliyi yüksək olmuşdur. Belə qabların üzərindəki ornament anqobun yayılma xüsusiyyətinə görə enli xətlərdən, dairəvi formalı naxışdan ibarət olmuşdur. Anqob üçün seçilmiş gil onun üzərinə çəkiləcəyi qabın gilinin xüsusiyyətinə uyğun olmuşdur. Qablar tam qurumamış halda olduğu

---

Elm, – 1979. – s. 31-36; Алиев В.Г. Культура эпохи средней бронзы Азербайджана / – В.Алиев. – Баку: Элм, – 1991. – s. 30-34; Əliyev V.H. Məmmədova A.Ə. II Kültəpə yaşayış yerində 2009-cu il tədqiqatları / V.Əliyev, A.Məmmədova // Azərbaycanda arxeoloji tədqiqatlar–2009. – Bakı: – 2010. – s. 127-128; Əliyev V.H. Məmmədova A.Ə. II Kültəpədə yeni tədqiqatlar (2010) / V.Əliyev, A.Məmmədova // Azərbaycanda arxeoloji tədqiqatlar–2010. Bakı: – 2011. – s. 128-133; Əliyev V.H., Məmmədova A.Ə. II Kültəpədə yeni tədqiqatlar / V.Əliyev, A.Məmmədova // Azərbaycanda arxeoloji tədqiqatlar–2011, – Bakı: – 2012. – s. 115-117; Əliyev V.H., Məmmədova A.Ə. II Kültəpə yaşayış yerində yeni tapıntılar (2013–2014-cü illər) / V.Əliyev, A.Məmmədova // Azərbaycanda arxeoloji tədqiqatlar – 2013-2014. Bakı: – 2015. – s.161.

zaman onun üzərinə anqob çəkmişlər. Çünki, əks halda anqob qabın üzərinə yaxşı yapışmaz, bişmə zamanı çatlayar, qopub tökülərdi. Narın qum, təbaşir, kaolin, feldspat, rəng verən oksidlər və s. anqob üçün xam maddələr olmuşdur. Anqoblanmada sürtmə, batırma, yayma üsullarından istifadə edilmişdir. Sürtmə üsulu zamanı hər hansı bir qabın üzərinə anqobu fırça ilə vurmuşlar. Yayma üsulu zamanı anqobu qabın üzərinə tökərək onu müxtəlif istiqamətlərdə hərəkət etdirmişlər. Bu üsulla qabın üzəri ilə yanaşı, içərisini də anqoblamışlar. Buna görə də, bəzi qabların içərisində anqob bir hissədə qalın, digər hissədə nazik olmuşdur. Batırmaq üsulu zamanı əvvəlcədən hazırlanmış anqobu dərin və geniş qaba tökmüşlər. Sonra qabı anqobun içərisinə salmışlar. Bu zaman anqob qabın üzəri ilə yanaşı içərisinə də daxil olmuşdur. Anqoblar əsasən ağ, boz, çəhrayı rəndə olmuşdur. Bəzən onun tərkibinə boya da qataraq qara, qırmızı və s. müxtəlif rəngli anqoblar düzəltmişlər. Boyaları mineral boya xammallarından (piqmentlərdən) və boyaq bitkilərindən hazılamışlar. Azərbaycanın digər bölgəsi kimi, Naxçıvan Muxtar Respublikası ərazisində də xeyli miqdarda mineral boya xammalları (piqmentlər) və boyaq bitkiləri var. Oxra, maqnetit, melanterit, manqan oksid, mis oksid və s. belə mineral boya xammallarıdır. Mineral boya xammallarını kimyəvi tərkibinə görə dəmir oksidli, manqanlı-dəmir oksidli, gilli, karbonatlı, kömürlü, silisli və sulfatlı olmaqla yeddi tipə ayırmışlar.[30]

V.N.Nağıyev, İ.Ə.Məmmədov, T.M.Seyidov və digər tədqiqatçılar tərəfində aparılmış araşdırmalar zamanı Naxçıvan Muxtar Respublikasının ərazisində təbii mineral boya xammalı olan on altı sahə aşkar olunmuşdur. Onlardan götürülmüş nümunələrin sınaq analizi nəticəsində ərazidəki maqnetitin (dəmir (III) oksid) ($Fe_2O_3$) miqdarının 7-31% təşkil etdiyi, dəmir oksidin miqdarına görə Çeşməbasar-Çənnəb sahəsinin daha geniş perspektivli olduğu müəyyən edilmişdir. Gülüstan kəndinin ərazisində təbii oxra, Xalxal kəndinin ərazisində maqnetit (dəmir (III) oksit) ($Fe_2O_3$), Nehrəm kəndinin

[30]Nağıyev V.N., Məmmədov İ.Ə. Naxçıvan Muxtar Respublikasının faydalı qazıntıları / V.Nağıyev, İ.Məmmədov, – Bakı: Elm, – 2010. – s. 138.

ərazisində melanterit ($FeSO47H_2O$) və epsomit ($MgSO47H_2O$) və s. mineral boya xammalları qeydə alınmışdır.[31]

Naxçıvan Muxtar Respublikasının ərazisi mineral boya xammalları ilə yanaşı, boyaq bitkiləri ilə də zəngindir. Bu bölgədə 3021 bitki növü var. Bu bitkilərin bir çoxundan boya əldə etmək mümkündür. Boyaq kökündən, qırmızı səndəldən (qırmızı badam ağacı), çətir yarpaqdan, dilqan kökündən, qarağac qabığından, sarağanın oduncağından (qırmızı koşenil), analin və alizarin maddələrdən, qırmızı böcəkdən (koşenin) qırmızı rəngi və onun ayrı-ayrı çalarlarını (açıq qırmızı, tünd qırmızı), tut, tozağacı, ağcaqayın, alma, heyva ağacının yarpaqlarından, rezedadan, qantəpərdən, dazotundan, südləyəndən, baldırğandan, süsəndən, andızdan, qaytarmadan, sumaqdan, qızıl səbətdən, skobnozadan, qıfsəbətdən, yatıqqanqaldan, yoncadan, yabanı çətənədən, əvəlikdən, üzərlikdən, soğandan, şirin biyandan, nazdan, dəvə ayağından, murdarçadan, kövrək mürdəşirdən, tikanlı kəvərdən, sarağandan (narınc ağacı), sumaqdan, boyaq ulaqqanqalından, sarı çiçəkdən (yalançı zəfəran), zirincdən, zəfərandan, səhlabdan sarı rəngi və onun ayrı-ayrı çalarlarını (tünd sarı, açıq sarı), qoz ləpzəyindən və yarpaqlarından, nar qabığından, itburnudan, "qallı" sumaqdan, qara torpaqdan qara rəngi və onun ayrı-ayrı çalarlarını (tünd qara, açıq qara), sabahgülündən, maklyuradan, dazotundan, zirincdən, dəvəyağından narıncı rəngi, murdarçadan, tozağacından, kövrək mürdəşərdən, yovşandan, yarpızdan, gicitkəndan, tutdan, ərikdən, armuddan, üzümdən, kartofdan, pazıdan, kökdən, turpdan yaşıl rəngi və onun ayrı-ayrı çalarlarını və s. almaq olur. Qəhvəyi rəngi və onun ayrı-ayrı çalarlarını almaq üçün isə xüsusi boyayıcı bitkilər az olduğundan, müxtəlif boyayıcı məhlulları bir-biri ilə uyğunlaşdırmaqla əldə etmək olur.[32]

---

[31]Məmmədov İ.Ə. Naxçıvan Muxtar Respublikasının qeyri-metal faydalı qazıntıları / İ.Məmmədov. – Bakı: Elm, – 2012. – s. 87; Nağıyev V.N., Məmmədov İ.Ə. Naxçıvan Muxtar Respublikasının faydalı qazıntıları / V.Nağıyev, İ.Məmmədov, – Bakı: Elm, – 2010. – s. 139.

[32]Talıbov T.H., İbrahimov Ə.Ş. Naxçıvan Muxtar Respublikası florasının taksonomik spektri (Ali sporlu, çılpaq toxumlu və örtülü toxumlu bitkilər) / T.H.Talıbov, Ə.Ş.İbrahimov. – Naxçıvan: Əcəmi, 2008. – s. 13-15.

Dissertasiyanın ikinci fəsli **"Erkən Tunc dövründə dulusçuluq"** adlanır. Bu fəsildə Erkən Tunc dövrü mədəniyyətinin xronologiyası, bu dövrə aid olan dulusçu məmulatlarının yayılma arealı və onların statistikası haqqında ətraflı məlumat verilmişdir. Keramika məmulatının tipoloji təsnifatı, onların üzərindəki naxışların motivləri öyrənilmişdir. "Kür-Araz mədəniyyəti"nin xronologiyası ilə bağlı əldə edilmiş yeni elmi nəticələr haqqında məlumat verilmişdir. I Maxta, Kültəpə, Ovçulartəpə, Xələc, Aşağı Daşarx abidələrində aparılmış arxeoloji qazıntılar zamanı onlardan aşkar olunmuş arxeoloji materiallara əsasən Naxçıvan diyarında "Kür-Araz mədəniyyəti" dörd mərhələyə bölünmüşdür. Birinci mərhələ (formalaşma) e.ə.V minilliyin ikinci rübü – e.ə.3500, ikinci mərhələ e.ə. 3500-3150, üçüncü mərhələ e.ə.3150-2700, dördüncü mərhələ e.ə.2700-2300-cü illəri əhatə etmişdir.[33]

Bu fəslin "**Dulusçuluğun yayılma arealı, dulusçu məmulatları tapılan abidələr**" adlı paraqrafında I Kültəpə, II Kültəpə, I Maxta, Xələc, Ovçulartəpəsi, Ərəbyengicə, Plovdağ, Xornu, I Qarabulaq, III Qarabulaq və s. abidələrdən aşkar olunan maddi mədəniyyət nümunələrinin əsasında Erkən Tunc dövrünə aid dulus məmulatların həm aran, həm də dağlıq və dağətəyi zonalarda yayıldığı müəyyən edilmişdir. Onlar küpə, küp, kasa, çölmək, nehrə və s. tipli gil qablardan ibarət olmuşdur. Bəzi abidələrdə qablarla yanaşı müxtəlif formalı keramika məmulatları da aşkar olunmuşdur. Heyvan fiqurları, təkər modelləri, ocaqlar, manqallar, diskşəkilli və silindrik formalı keramikalar və s. belə arxeoloji materiallardandır.

I Kültəpə yaşayış yerində gil heyvan fiqurları, təkər modelləri, diskşəkilli və silindrik formalı qablar, ocaq və manqallar aşkar edilmişdir.[34] Bu abidənin üçüncü, dördüncü və beşinci tikinti qatla-

---

[33]Baxşəliyev V.B. Naxçıvan arxeologiyası yeni tapıntılar işiğında / Baxşəliyev V.Baxşəliyev.– Naxçıvan: Əcəmi, 2022. – s. 178-179.

[34]Aşurov S.H. Naxçıvanın İlk Tunc dövrü keramikası / S.Aşurov. Bakı: Nafta-Press,– 2002. – s. 58, 59; Абибуллаев О.А. Энеолит и бронза на территории Нахичеванской АССР / О. Абибуллаев. – Баку: Элм, – 1982. – s. 134, 136, 139, 140, 141.

rında dulus kürəsinin qalığı da qeydə alınmışdır.[35] I Maxta yaşayış yerində heyvan fiqurları, diskşəkilli və silindrik formalı qablar, ocaqlar, manqallar,[36] Ovçulartəpəsindən gil heyvan fiqurları, təkər modelləri,[37] I Kültəpə, II Kültəpə, Şortəpə[38] abidəsindən isə ocaq qalıqları aşkar olunmuşdur. Onların hər biri təsadüfən hazırlanmamış, müxtəlif məqsədlə istifadə edilmişdir.

İkinci fəslin **"Keramika məmulatının tipoloji təsnifatı"** başlıqlı paraqrafında Naxçıvan Muxtar Respublikasının Erkən Tunc dövrü abidələrində aşkar olunmuş gil qablar, heyvan fiqurları, təkər modelləri, diskşəkilli və silindrik formalı qablar, ocaqlar, manqallar sistemli şəkildə tədqiq edilmişdir. Tədqiqat zamanı onların tipoloji xüsusiyyəti, təyinatı və digər məslələr öyrənilmişdir. Aparılan araşdırma nəticəsində müəyyən edilmişdir ki, bu dövrün saxsı məmulatları boyasız olmuşdur. Gil qablar insanların məişət və təsərrüfat həyatında geniş yer tutmuşdur. Onlardan müəyyən dini ayinlərin icrasında da istifadə edilmişdir. Heyvan fiqurları bu dövrün insanlarının mənəvi mədəniyyəti, dini-ideoloji görüşləri ilə bağlı olmuş, "heyvan kultu"nu simvolizə etmişdir. Təkər modelləri prototürk mədəniyyətində özünəməxsus yer tutan, mənbələrdə müxtəlif adlarla ("bir hey-

---

[35]Абибуллаев О.А. Энеолит и бронза на территории Нахичеванской АССР / О. Абибуллаев. – Баку: Элм, – 1982. – s. 87-90.

[36]. Aşurov S.H. Maxta arxeoloji ekspedisiyasının tədqiqatları / S.H. Aşurov, V.B. Baxşəliyev, S.A. Hüseynova, F. A. Əliyeva // Azərbaycanda arxeoloji tədqiqatlar–2012, Bakı, – 2013 – s. 92, 105; Aşurov S.H. Maxta arxeoloji ekspedisiyasının 2013–2014–cü il tədqiqatları / S.H. Aşurov , S.A.Hüseynova, F.A. Əliyeva, E.H. Əliyev [və b.] // – Bakı, – Azərbaycanda arxeoloji tədqiqatlar–2013-2014, – 2015. – s. 115, 119; Əliyev V.H., S.H.Aşurov Maxta zoomorf fiqurları / V.Əliyev, S.Aşurov // Azərbaycan SSR EA Məruzələri, – Bakı, – 1988. №10, – s. 73-76.

[37] Baxşəliyev V.B., Marro C., Aşurov S.H Ovçulartəpəsində arxeoloji tədqiqatlar / V.B.Baxşəliyev, C.Marro, S.H. Aşurov // Azərbaycanda arxeoloji tədqiqatlar–2012, Bakı, – 2013. – s. 343-349.

[38]Алекперова М.И. Об одной группе древних очажных подставок из территории Нахичеванской АССР // – Баку: Док. АН АзССР, – 1986. № 5, – , с. 85-89; Сеидов А.Г. Куро–Аракская культура в Кюлыпепе II // Тезисы док-ладов конференции аспирантов Азербайджана, Баку, – 1983. – s. 95-96; Сеидов А.Г. Памятники куро–аракской культуры Нахичевани / А.Сеидов. – Баку: Билик, – 1993. – с. 89, ris. 12, 10-15.

van qoşma mədəniyyəti", "atlı araba mədəniyyəti") tanınan, "araba mədəniyyəti"ni simvolizə etmiş, bu mədəniyyətin Naxçıvan diyarını da əhatə etdiyini göstərmişdir. Ocaq qurğularından yemək bişirmək, isinmək, evləri qızdırmaqla yanaşı, müəyyən ritual ayinlərin icrasında da istifadə etmişlər.

İkinci fəslin **"Keramika məmulatı üzərindəki naxışların motivləri və onların müqayisəli təhlili"** başlıqlı paraqrafında Naxçıvan diyarının Erkən Tunc dövrü abidələrində aşkar olunmuş saxsı məmulatlarının üzərində olan ornamentlərin çəkilmə texnologiyası, semantikası öyrənilmişdir. Aparılan araşdırma nəticəsində müəyyən edilmişdir ki, onların üzərinin naxışlanmasında oval və dairəvi batıqlardan, svastika, menandr formalı, ziqzaqşəkili, daraqvari, buynuzşəkilli, spiral formalı ornamentlərdən qabarıq, məməcikşəkilli çıxıntılardan geniş istifadə edilmişdir. Naxışlar qazma, cızma, basma üsulları ilə çəkilmişdir. Onlar sadə və mürəkkəb süjetli olmuşdur. Üzərində belə naxışlar olan gil qablar Naxçıvan diyarının Erkən Tunc dövrü abidələrinin bir çoxunda aşkar olunmuşdur. I Maxtadan,[39] II Kültəpə yaşayış yerinin Erkən Tunc dövrü təbəqəsindən[40] üzərində menandr (), ziqzaqşəkili, daraqvari formalı (), buynuzşəkilli () ornamentlər olan müxtəlif formalı gil qablar aşkar edilmişdir. I Kültəpə,[41] Aşağı Daşarx, I Maxta[42] abidələrində aşkar olunmuş gil qabların bəzilərinin üzərində spiral formalı () ornamentlər də olmuşdur. Hər bir ornament, naxış

---

[39]Seyidov A.Q. Naxçıvan e.ə. VII–II minilliklərdə. Bakı: Elm, 2003. – s. 111; Aşurov S.H. Naxçıvanın İlk Tunc dövrü keramikası / S.Aşurov. Bakı: Nafta–Press,– 2002. – tab IX, 2,6, tab XI, 1; tab XIII, 12.

[40]Сеидов А.Г. Раннебронзовая культура Нахчывана / А.Сеидов. – Воронеж: Воронежский государствений технический университет, – 2002. – s. 159, ris 16, 4, 10; Сеидов А.Г. Памятники куро-аракской культуры Нахичевани / А.Сеидов. – Баку: Билик, – 1993. – s. 183, ris, 11, 4, 8.

[41]Сеидов А.Г. Раннебронзовая культура Нахчывана / А.Сеидов. – Воронеж: Воронежский государствений технический университет, – 2002. – ris 16, 4, 10; Сеидов А.Г. Памятники куро-аракской культуры Нахичевани / А.Сеидов. – Баку: Билик, – 1993. – ris. 43, 6.

[42]Aşurov S.H. Naxçıvanın İlk Tunc dövrü keramikası / S.Aşurov. Bakı: Nafta-Press,– 2002. – s. 35.

motivi təsadüfən çəkilməmiş, müəyyən semantik məna daşımışdır. Bu ornamentlərin bir qismi geniş yayılma arealına malik olmuşdur. Onların bir qrupunun yaxın bənzərləri Cənubi Qafqazın,[43] Anadolunun[44] Erkən Tunc dövrü abidələrində aşkar olunmuş gil qabların üzərində, Şumer-Elam piktoqramlarının arasında, Orxon-Yenisey əlifbasında, qədim türk damğaları, simvolları içərisində, xalçaların üzərində, qayaüstü təsvirlərdə də var. Şumer-Elam piktoqramlarında menandr tipli belə işarə qoşa formada ( ) əks olunmuşdur. Onun "siqu" kimi oxunduğu, divar, hasar mənasını verdiyi qeyd edilmişdir.[45] Orxon-Yenisey əlifbasında belə ornament bir qədər fərqli formada verilmişdir ( ). Orada buna bənzər ornament "a" və "ə" səsini bildirmişdir. Həmin işarənin sözün əvvəlində nadir hallarda, sözün sonunda isə həmişə işləndiyi qeyd edilmişdir.[46] Ziqzaqşəkili, daraqvari formalı ornamentin yayılma arealı ilə bağlı aparılan araşdırma zamanı məlum olumuşdur ki, Orxon-Yenisey əlifbasında qoşa şəkildə, üfüqi formada verilmiş belə ornament ( ) "d" səsini bildirir və qalın saitlərlə işlənir. Tək formada olan isə ( ) qalın və incə samitlərlə birlikdə işlənərək, "aç" səsini bildirir.[47] Baltavarların,

---

[43]Кушнарева К.Х., Чубинишвили Т.Н. Древние культуры Южного Кавказа / К.Х.Кушнарева, Т.Н. Чубинишвили, – Ленинград: Наука, 1970. – s. 26, 28. 68, 89; Шаншашвили Н. Знаки и символы на керамике куро-аракской культуры / Н.Шаншашвили. – Тблиси: Академия наук Грузии Центр археоло-гических исследований, – 1999. – s. 47.

[44]Öztürk N. Anadolu'nun Karaz Seramiğine Ait Eski İle Yeni Görüşleri Ve Yerleşim Yerleri // – Erzurum: Atatürk Üniversitesi Fen–Edebiyat Fakültesi Sosyal Bilimler Dergisi, – 2004. Cilt 4, sayı 32. – s. 83; Işıklı M. Doğu Anadolu erken Transkafkasya kültürü / M.Işıklı. – İstanbul: Arkeoloji ve Sanat yayınları, – 2011. – s. 67, 78.

[45]Əlmirzəyev A.N. Erken Elam cəmiyyəti: iqtisadi-siyasi münasibətlər və yazı tarixi (e.ə. IV-III minlllikler) / A. Əlmirzəyev. – Bakı: Elm, – 2011. – s. 190.

[46]Rəcəbov Ə., Məmmədov Y. Orxan– Yenisey abidələri / Ə.Rəcəbov. – Bakı: Yazıçı, – 1993. – s. 31; Tekin T. Orhon Yazıtları // – Ankara: Türk Dil Kurumu Yayınları, – 2010. baskı 4, (540), – s. 150.

[47]Rəcəbov Ə., Məmmədov Y. Orxan-Yenisey abidələri / Ə.Rəcəbov. – Bakı: Yazıçı, – 1993. – s. 33, 39.

iltəbərlərin (eltebər) simvolları, “xan,”[48] “dögər” boyunun damgası[49] da buna bənzəyir. Oğuzlarda belə ornament "yüksək hakimiyyət ve vassallar", "vassallıq" mənasını ifadə edir. Buynuzşəkilli ornamentlə bağlı araşdırma apararkən məlum olmuşdur ki, bu ornamentə bənzər işarə də, Orxan-Yenisey əlifbasında vardır. Oradaki belə işarələrdən biri (ϒ) incə samitlərlə birlikdə işlənərək “p” səsini, digəri isə (Ɣ) “s” səsini bildirir.

Aparılan araşdırma zamanı məlum olmuşdur ki, Erkən Tunc dövrünün keramika məmulatlarında Eneolit dövrünün mədəniyyətinə aid bəzi əlamətlərin olması Kür-Araz mədəniyyətinin Eneolit mədəniyyətindən qaynaqlanaraq meydana çıxdığını və inkişaf etdiyini sübut edən arxeoloji materiallardandır. Basma naxışlar, yarımşar formalı qulplar, məməçikşəkilli çıxıntılar və s. belə naxış motivlərindən olmuşdur. Yarımşar formalı qulplar, məməcikşəkilli çıxıntılar Eneolit dövrünə aid şiş yapmaların davamı olmuşdur. Eneolit dövründə barmaq basqısı ilə vurulmuş naxışları Erkən Tunc dövrünün son mərhələsində daraqvari alətlə vurulmuş basma naxışlar əvəz etmişdir. Bu dövrün saxsı məmulatları içərisində ağzının kənarında yuvarlaq deşik olan, ağız kənarı darağa bənzər beşdişli alətlə naxışlanmış gil qablar da vardır. Bu dövrə aid ən qədim saxsı məmulatlarının e.ə. 4200-3400-cü illərə aid olması Naxçıvanın Kür-Araz mədəniyyətinin ən qədim mərkəzlərindən biri olduğunu sübut edir. Keramika məmulatlarının üzərindəki ornamentlərin bir çoxu lokal xarakter daşıyır. Bir qismi isə geniş yayılma arealına malikdir. Onların bəzilərinin yaxın bənzərlərinin prototürk mədəniyyətində geniş yayılması, qədim türk tayfalarının damğaları, işarələri və simvolları ilə bənzərlik təşkil etməsi Naxçıvan diyarının Erkən Tunc dövrü mədəniyyətinin mənsubiyyətini öyrənmək baxımından da mühüm elmi əhəmiyyət daşıyır.

Dissertasiyanın üçüncü fəsli **“Orta Tunc dövründə dulusçuluq”** adlanır. Bu fəsildə Orta Tunc dövrü mədəniyyətinin xrono-

---

[48]Qurbanov A. Damğalar, rəmzlər... mənimsəmələr / A.Qurbanov. – Bakı: Azərbaycan Respublikasının Prezidenti Yanında Strateji Araşdirmalar Mərkəzi, – 2013.– s. 49

[49]Əbülqazi B. Şəcəreyi-Tərakimə: türkmənlərin soy kitabı [tərc. ed. İ.Osmanlı] / B.Əbülqazi. – Bakı: Azərbaycan Milli Ensiklopediyası NPB, – 2002. – s. 77.

logiyası müəyyən edilmiş, bu dövrə aid dulusçuluq məmulatlarının yayılma arealı, onların tipoloji təsnifatı, naxış motivi və digər məsələlər sistemli şəkildə öyrənilmişdir. Tədqiqat zamanı bu dövrün mədəniyyətinin xronologiyası ilə bağlı əldə olunmuş yeni elmi nəticələr haqqında məlumat verilmişdir. Orta Tunc dövrü Naxçıvanda e.ə. III minilliyin ikinci yarısından–e.ə. II minilliyin son rübünə qədər olan dövrü əhatə etmiş, erkən, orta və son mərhələlərinə bölünmüşdür. II Kültəpənin Orta Tunc dövrünə aid ikinci təbəqəsinin üst laylarından götürülmüş karbon analizi e.ə. 1800-cü ili,[50] Qızqalası yaşayış yerindən götürülmüş karbon analizi e.ə.2135-1780-ci illəri göstərmişdir.[51]

Bu fəslin **"Dulusçuluğun yayılma arealı, dulusçu məmulatları tapılan abidələr"** başlıqlı paraqrafında Naxçıvan ərazisində yerləşən Orta Tunc dövrü abidələrindən aşkar olunmuş arxeoloji materiallar əsasında dulus məmulatlarının yayılma arealı öyrənilmişdir. Aparılan araşdırma nəticəsində müəyyən edilmişdir ki, Erkən Tunc dövrünün materialları kimi, bu dövrün dulusçu məmulatları da aran, dağlıq və dağətəyi zonalarda yayılmışdır. Onlar həm yaşayış yerlərində, həm də qəbir abidələrində qeydə alınmışdır. Bu abidələrin bir qismində (I Kültəpə, II Kültəpə, Şahtaxtı, Qızılburun və s.) geniş miqyasılı arxeoloji qazıntılar aparılsa da, bir qrupu (Qalacıq, Qazançı, Quyuludağ, Kərki, Kükü və s.) kəşfiyyat xarakterli tədqiqatlar nəticəsində öyrənilmişdir. Ən geniş yayılmış saxsı məmulatı gil qablardan ibarət olmuşdur. Gil qablarla yanaşı digər keramika məmulatları da qeydə alınmışdır. II Kültəpə,[52] Şortəpə, Çalxanqala[53] yaşayış yerlərində dulus kürəsinin, II Kültəpə yaşayış yerində dulus kürəsi ilə yanaşı

---

[50] Алиев В.Г. Культура эпохи средней бронзы Азербайджана / – В.Алиев. – Баку: Элм, – 1991. – с. 118.

[51] Bahşeliyev V., Lauren R., Hilary G., Selin N., Jennifer S. Kizkale yerleşmesi ve nekropolü / V.Bahşeliyev, R.Lauren, G. Hilary [və b.] // TÜBA-AR, – Ankara: – 2019. sayı 25, – s. 58.

[52] Абибуллаев О.А. Энеолит и бронза на территории Нахичеванской АССР / О. Абибуллаев. – Баку: Элм, – 1982. – s. 87-90; Алиев В.Г. Культура эпохи средней бронзы Азербайджана / – В.Алиев. – Баку: Элм, – 1991. – s. 31-34.

[53] Алекперов А.К. Исследование по археологии и этнографии Азербайджана / А.Алекперов. – Баку: Издательство АН Азербайджанской ССР, – 1960. – s. 55.

dulusçu emalatxanasının qalıqları da, aşkar olunmuşdur. Bu yaşayış yeri Orta Tunc dövründə Naxçıvanın əsas dulusçuluq mərkəzlərindən biri olmuşdur.[54]

Bu fəslin **"Keramika məmulatının tipoloji təsnifatı"** başlıqlı paraqrafında gil qablar və digər keramika məmulatlarından sistemli şəkildə bəhs edilmişdir. Onların tipoloji xüsusiyyəti, təyinatı və digər məslələr öyrənilmişdir. Müəyyən edilmişdir ki, Erkən Tunc dövründə olduğu kimi bu dövrdə də gil qablardan məişətdə və təsərrüfatda geniş istifadə edilmişdir. Onlar əsasən boz və çəhrayı rəngli olmuşdur. Boz rənglilərin çoxu sadə, boyasız, çəhrayı rənglilər isə boyalı düzəldilmişdir. Boyalılar monoxrom (birrəngli) və polixrom (çoxrəngli) rəngli olmuşdur. Sadə qabların bir qismi cilalı, bir qrupu isə cilasız düzəldilmişdir. Boyalı qabların üzərində müxtəlif rənglərlə naxışlar və təsvirlər çəkilmişdir.

Üçüncü fəslin **"Keramika məmulatı üzərindəki naxışların motivləri və onların müqayisəli təhlili"** başlıqlı paraqrafında gil qabların üzərindəki naxışlar, bu naxışların çəkilmə texnologiyası, semantikası və digər aktual məsələlər öyrənilmişdir. Müəyyən edilmişdir ki, bu dövrdə boyalı qablar geniş yayılmışdır. Naxçıvan "Boyalı qablar mədəniyyəti"nin əsas mərkəzlərindən biri olmuşdur. Onlar forma və xüsusiyyətinə, naxış motivinə görə Cənubi Qafqazın, Şərqi Anadolunun və Urmiya hövzəsinin keramikası ilə yaxın oxşarlıq təşkil etsə də, yerli dulusçuluq məmulatı olduğu üçün bəzi xüsusiyyətlərinə görə onlardan fərqlənir. Boyasız qabların üzəri cızma və basma üsulu ilə, boyalılar isə fırça ilə naxışlanmışdır. Erkən Tunc dövründə olduğu kimi, bu dövrdə də həndəsi ornametlər geniş ya-

---

[54]Əliyev V.H. Məmmədova A.Ə. II Kültəpə yaşayış yerində 2009-cu il tədqiqatları / V.Əliyev, A.Məmmədova // Azərbaycanda arxeoloji tədqiqatlar–2009. – Bakı: – 2010. – s. 127-128; Əliyev V.H. Məmmədova A.Ə. II Kültəpədə yeni tədqiqatlar (2010) / V.Əliyev, A.Məmmədova // Azərbaycanda arxeoloji tədqiqatlar–2010. Bakı: – 2011. – s. 128-133; Əliyev V.H., Məmmədova A.Ə. II Kültəpədə yeni tədqiqatlar / V.Əliyev, A.Məmmədova // Azərbaycanda arxeoloji tədqiqatlar–2011, – Bakı, – 2012. – s. 115-117; Əliyev V.H., Məmmədova A.Ə. II Kültəpə yaşayış yerində yeni tapıntılar (2013– 2014– cü illər) / V.Əliyev, A.Məmmədova // Azərbaycanda arxeoloji tədqiqatlar–2013– 2014. Bakı: – 2015. – s. 161.

yılmışdır. Onlar dalğalı xətdən ( , ), üçbucaqdan ( ; ; ; ), bir-birinin içərisində olan göy qurşağına bənzər yarımdairəvi formalı ornamentdən ( ; ), müxtəlif formalı ulduz təsvirlərindən ; ; ; ), kəsişən xətlərin kombinasiyasından yaranan həndəsi ornamentdən ( ), təbərzin formalı naxışdan ( ) və s. ibarət olmuşdur. Boyalı qabların üzərində həndəsi ornamentlərlə yanaşı insan, heyvan təsvirləri də çəkilmişdir. Onların bir qrupu yeni yaransa da, bir qismi Erkən Tunc dövrü ornamentlərinin davamı olmuşdur. Boyalı qabların üzərində süjetli, müəyyən kompozisiyalı təsvirlər geniş yayılmışdır. Təsvirlər sadə və mürəkkəb süjetli çəkilmişdir. Onlar insanların həyat tərzi ilə yanaşı, bədii-estetik düşüncə tərzini, dini-ideoloji görüşlərini əks etdirmişdir. Yaxın bənzərlərini Cənubi Qafqazın,[55] Anadolunun, Urmiya hövzəsinin abidələrində,[56] xalçaların üzərində,[57] qayaüstü təsvirlərdə[58] müşahidə etmək olur. Həndəsi ornamentlərin bir qrupunun bənzəri Şumer-Elam mədəniyyətində, Orxan-Yenisey yazılarında, qədim türk damğaları, işarələri və simvolları arasında vardır. Ayxan oğuzlarının yaparlı boyunun damğası da dalğalı xətt şəklində olub, "ayaq", "dayaq" mənasını verir.[59] Dalğalı

---

[55]Кушнарева К.Х., Чубинишвили Т.Н. Древние культуры Южного Кавказа / К.Х.Кушнарева, Т.Н. Чубинишвили, – Ленинград: Наука, 1970. – tab I, 17; Чубинишвили Т.Н. Амиранисгора. Материалы к древнейшей истории Месхет–Джавахети. –Тбилиси. Издательство ЛИ Грузинской ССР, – 1968. – с. 81– 90.

[56]Brown T.B. Excavations in Azerbaijan, 1948 // T.Brown. –London: John Murray, Albemarle Street, IV. XIV, – 1951. – tab.7, 6.

[57]Mesleki eğitim ve öğretim sisteminin güçlendirilmesi projesi. El Sanatlari Teknolojisi (motif çizim temel teknikleri /. tərt. ed. Milli Egetim Bakanlığı. – Ankara: 2011. – s. 51, 52.

[58]Əliyev V.H. Gəmiqaya / V.Əliyev. – Bakı: Əbilov, Zeynalov və oğulları, – 2005. – 147, s. 74-76; Müseyibli N.Ə. Gəmiqaya / N.Müseyibli. – Bakı: Çaşıoğlu, – 2004, – s. 191–192.

[59]Əbülqazi B. Şəcəreyi-Tərakimə: türkmənlərin soy kitabı [tərc. ed. İ.Osmanlı] / B.Əbülqazi. – Bakı: Azərbaycan Milli Ensiklopediyası NPB, – 2002. – s. 101; Qurbanov A. Damğalar, rəmzlər... mənimsəmələr / A.Qurbanov. – Bakı: Azərbaycan Respublikasının Prezidenti Yaninda Strateji Araşdirmalar Mərkəzi, – 2013. – s. 247.

xətdən ibarət naxış motivi Orxan-Yenisey əlifbasında üfüqi istiqamətdə () verilərək d” hərfini bildirmişdir.[60] Üçbucaq təsvirinin semantikası və yayılma arealı ilə bağlı aparılan araşdırma zamanı məlum olmuşdur ki, tək şəkildə olan bu həndəsi ornament Şumer-Elam mədəniyyətində “sig” kimi oxunur və “yun” mənasını verir,[61] Orxan-Yenisey əlifbasında üçbucaq rəsmi üfüqi formada  bir-birinə bitişik çəkilmişdir. Orada bu ornament “bş” səsini bildirir və “baş” kimi oxunur.[62] Göy qurşağına bənzər yarımdairə formalı naxış motivi ilə bağlı aparılan araşdırma zamanı məlum olmuşdur ki, Şumer-Elam piktoqramları içərisindəki buna bənzər ornament “ti” kimi oxunur və “giriş” mənasını verir.[63] Karabölüklərin, çuvaldarların, qıpçaqların damğaları da buna bənzəyir. Qıpçaq türklərində bu işarənin damğa adı “ay ürəkli”dir (“ay yürektü”).[64]

Dissertasiyanın sonuncu dördüncü fəsli **“Son Tunc-Erkən Dəmir dövründə dulusçuluq”** adlanır. Digər fəsillərdə olduğu kimi, bu fəsildə də dövrün xronologiyası, dulusçuluq məmulatlarının yayılma arealı, keramika məmulatının tipoloji təsnifatı, naxış motivləri, naxışların semantikası öyrənilmişdir. Tədqiqat zamanı son dövrlərdə bu mədəniyyətin xronologiyası ilə bağlı əldə olunmuş yeni elmi nəticələr haqqında məlumat verilmişdir. Şərur rayonunun ərazisindəki arxeoloji abidələrdən götürülmüş karbon analizi Naxçıvanda

---

[60]Rəcəbli Ə.Ə. Qədim türk yazısı abidələri  [II cilddə]: Göytürk yazısı abidələri / Ə.Rəcəbli. – Bakı: Nurlan, 2009. c.II, – s. 45; Gülensoy T. Orhun’dan Anadoluya türk damgalari (damgalar, imler, enler) /.T.Gülensoy. – Istanbul, T.D.A.V. Yayını, – 1989. Nu: 51, – s. 7; Rəcəbov Ə., Məmmədov Y. Orxan-Yenisey abidələri / Ə.Rəcəbov. – Bakı: Yazıçı, – 1993. – s. 32, 35.

[61]Əlmirzəyev A.N. Erken Elam cəmiyyəti: iqtisadi-siyasi münasibətlər və yazı tarixi (e.a. IV-III minlllikler) / A. Əlmirzəyev. – Bakı: Elm, – 2011. – s. 190.

[62]Gülensoy T. Orhun’dan Anadoluya türk damgaları (damgalar, imler, enler) /.T.Gülensoy. – İstanbul, T.D.A.V. Yayını, – 1989. Nu: 51, – s. 7.

[63]Əlmirzəyev A.N. Erken Elam cəmiyyəti: iqtisadi-siyasi münasibətlər və yazı tarixi (e.a. IV-III minlllikler) / A.Əlmirzeyev. –  Bakı: Elm, –  2011. –  s. 191.

[64]Xəlilov B. Mahmud Kaşğarinin “Divani lüğət-it-türk” əsərində etnonimlər / B.Xəlilov. – Bakı: Garisma MMC, – 2009. – s. 20, 21; Sümər F . Oğuzlar  F.Sümər. – Bakı: Yazıçı, – 1992. – s. 192.

Son Tunc dövrünün e.ə.1400 – e.ə.1200-cü, Erkən Dəmir dövrünün e.ə.1200 – e.ə. 900-cü illəri əhatə etdiyi müəyyən edilmişdir.[65]

Bu fəslin **"Dulusçuluğun yayılma arealı, dulusçu məmulatları tapılan abidələr"** başlıqlı paraqrafında dulusçu məmulatlarının yayılma arealı abidlərdən aşkar olunmuş arxeoloji materiallar əsasında öyrənilmişdir. Aparılan araşdırma nəticəsində müəyyən edilmişdir ki, Erkən və Orta Tunc dövrünün dulusçu məmulatları kimi bu dövrün məmulatları da aran, dağlıq və dağətəyi zonalarda yayılmışdır. Onlar həm yaşayış yerlərindən, həm də qəbir abidələrindən aşkar olunmuşdur. Bu abidələrin bir qrupunda (I Kültəpə, II Kültəpə, Şahtaxtı, Qızılburun, Plovdağ, Muncuqlutəpə, Mərdangöl və s.) arxeoloji qazıntılar aparılmış, bir qismi (I Kükü, II Kükü, Kolanı, Haqqıxlıq, Dəmyələr, İlikliqaya, Qumluq və s.) kəşfiyyat xarakterli tədqiqatlar əsasında öyrənilmişdir. Ən çox tapılan saxsı məmulatı gil qablar olmuşdur. Qablarla yanaşı müxtəlif formalı keramika məmulatları da aşkar edilmişdir. Silindrik formalı pasta möhürlər, kiçik insan heykəli də bu dövrə aid keramika məmulatlarından olmuşdur. Şahtaxtı,[66] Mərdangöl, Muncuqlutəpə,[67] II Plovdağ, III Plovdağ[68] abidələrindən silindirik fomalı pasta möhürlər tapılmışdır. Gil insan fiquru Şərur rayonunun Şəhriyar kəndində təsadüf nəticəsində aşkar olunaraq haliyədə Şərur rayon Tarix-Diyarşünaslıq Muzeyində saxlanılır.

Bu fəslin **"Keramika məmulatının tipoloji təsnifatı"** başlıqlı paraqrafında abidələrdən aşkar olunmuş gil qablar tipoloji xüsusiyyətinə görə qruplaşdırılaraq, müqayisəli şəkildə öyrənilmişdir. Müəy-

---

[65]Gopnik H. Şərur düzünün Orta Tunc və Dəmir dövrü qalaları // – Naxçıvan: Naxçıvan (ictimai-siyasi, ədəbi-bədii, elmi-publisistik jurnal), – 2016, – s. 97.

[66] Əliyev V.H. Şahtaxtının tunc dövrü abidələri // – Bakı: Azərbaycan SSR Elmlər Akademiyasının Xəbərləri, – 1974. № 4, – s. 75, tab. III.

[67]Ибрагимов Б.И. Пловдаг «многоготомник» древней истории // – Баку: Yol, – 2015, №1(49), с. 48-49; Асланов Г.М. Древние некрополы Хараба Гилана / Г.М. Асланов, В.И. Ибрагимов, С.М. Кашкай. – Баку: Нурлан, – 2003, – с. 71.

[68]İbragimli B.İ. Plovdag necropolises' funeral rite // – Ankara: TÜBA-AR, – 2018. – s. 69; İbrahimli B.İ., Qədirzadə H.Q., Əliyev Q.Ə., Xəlilov T.F., Əhmədova L.N. Üçüncü Plovdağ nekropolunda aparılmış arxeoloji qazıntılar / B.İbrahimli, Q.Qədirzadə, Q.Əliyev [və b.] // Azərbaycanda arxeoloji tədqiqatlar–2013-2014,– Bakı: – 2015. – s. 157.

yən edilmişdir ki, Orta Tunc dövründə olduğu kimi, bu dövrdə də boyalı və boyasız qablardan geniş istifadə edilmişdir. Boyasız qablar əsasən boz, açıq qara, boyalılar isə çəhrayı rəngli düzəldilmişdir. Boz rəngli qabların bəziləri Orta Dəmir dövrünün qabları ilə bənzərlik təşkil etsə də, müəyyən lokal xüsusiyyətlərinə görə onlardan fərqlənir. Hündürdabanlı qədəhlər, kənarları iki tərəfdən batıq olan kasalar, çəkmə formalı, çaynik tipli qablar bu dövrə aid keramika məmulatlarından olmuş, Naxçıvan diyarının Son Tunc-Erkən Dəmir dövrü dulusçuluq sənətini öyrənmək üçün mühüm elmi əhəmiyyət daşımışdır.

Dördüncü fəslin **"Keramika məmulatı üzərindəki naxışların motivləri və onların müqayisəli təhlili"** başlıqlı paraqrafında gil qabların və digər keramika məmulatlarının üzərindəki naxışların süjeti, semantikası, çəkilmə texnologiyası və digər aktual məslələr öyrənilmişdir. Aparılan araşdırma nəticəsində müəyyən edilmişdir ki, bu dövrə aid boyasız qabların üzəri basma, yapma, cızma üsulu ilə, həndəsi, ştamp və konnelyur ornamentlə, qulaqcıqşəkilli, göbələkvari çıxıntılarla bəzədilmişdir. Boyalı qabların üzərində həndəsi naxışlarla yanaşı müxtəlif heyvan rəsmləri də çəkilmişdir. Bu dövrün boyalı qabları əsasən polixrom (çoxrəngli) rəngli hazırlanmışdır. Onların üzərində ağ, qara, sarı rənglərlə müxtəlif süjetli rəsmlər çəkilmişdir. Həm sadə, həm də boyalı qabların bir qrupunun forma və xüsusiyyətində Orta Tunc dövrünün ənənələri saxlanılaraq inkişaf etdirilmişdir. Erkən və Orta Tunc dövründə olduğu kimi, bu dövrdə də gil qabların üzərindəki ornamentlərin bir qrupu geniş yayılma arealına malik olmuşdur. Onların yaxın bənzərləri prototürk mədəniyyətində yayılmışdır. Belə xüsusiyyət əsasən həndəsi ornamentlərdə müşahidə olunmuşdur. Şahtaxtı nekropolundan aşkar olunmuş daraqvari formalı[69] (; ) ornamentin yaxın bənzərini Orxon-Yenisey əlifbasında müşahidə etmək olur.[70] Orada buna bənzər işarə (; ) "k"

[69]Агаев Г.Г. Шахтахты в эпохи поздней бронзы и раннего железа / – Г.Агаев. – Баку – Москва: Агрыдаг, – 2002. – tab. XV, 4; tab. XVIII, 11.

[70]Gülensoy T. Orhun'dan Anadoluya türk damgaları (damgalar, imler, enler) / T.Gülensoy.– İstanbul, T.D.A.V. Yayını, – 1989. Nu: 51. – s. 7; Rəcəbov Ə., Məmmədov Y. Orxan-Yenisey abidələri / Ə.Rəcəbov. – Bakı: Yazıçı, – 1993. – s. 30.

səsini bildirir. Bu ornamentin yaxın bənzəri bir sıra türk damğaları içərisində də vardır. “Düker” (“döger”) boyunun[71] (), qırğızların () və avşarların ()[72] damğalarını buna nümunə göstərmək olar. II Kültəpə yaşayış yerində qeydə alınmış gil qabın üzərindəki “M” formalı () həndəsi ornamentin[73] yaxın bənzəri də Orxon-Yenisey əlifbasında[74] vardır. Culfa nekropolundan aşkar olunmuş qabın üzərindəki “M” formalı naxış motivi[75] () səlcuqların[76] (), qırğızların[77] damğaları ilə () oxşarlıq təşkil edir. Qırğızlar buna bənzər işarəni qoç buynuzuna bənzətmiş, onu “koçkar”, “kaçkar” damğası adlandırmışlar. Bu dövrün maraqlı ornamentlərindən biri də “V” formalı (; ; ) naxışlar olmuşdur. Qızılburunda,[78] Culfada[79] və Naxçıvanda[80] qeydə alınmış belə həndəsi ornamentlər altay türklərinin (), salur (salğur) boyunun damğaları () ilə oxşarlıq təşkil edir.[81]

---

[71]Ebülgazi B. Han Şecere–i Terakime Turklerin Soy Kutugu (Tercüman 1001 Temel Eser 33) / B.Ebülgazi, haz.E.Muharrem Ergin, – İstanbul: Tercüman, – 1974. – s. 50.

[72]Gülensoy T. Orhun’dan Anadoluta türk damğalari (damğalar, imler, enler) / T.Gülensoy. – İstanbul, T.D.A.V. Yayını, – 1989. Nu: 51. – s. 68.

[73]Baxşəliyev V.B. Naxçıvanın qədim tayfalarının mənəvi mədəniyyəti / V.Baxşəliyev. – Bakı: Elm, – 2004. – s. 165, şəkil 39, 2.

[74]Rəcəbov Ə., Məmmədov Y. Orxan-Yenisey abidələri / Ə.Rəcəbov. – Bakı: Yazıçı, – 1993. – 39; Gülensoy T. Orhun’dan Anadoluta türk damğalari (damğalar, imler, enler) / T.Gülensoy. – İstanbul, T.D.A.V. Yayını, – 1989. Nu: 51. – s. 7.

[75]Əliyev V.H. Culfa arxeoloji tapıntıları // – Bakı: Azərbaycan SSR Elmələr Akademiyasının Xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası, – 1968. № 3, – tab, 1, 9

[76]Yazıcızade A. Tevarih-i Al-i Selcuk (Oğuznâme-Selçuklu Tarihi) (Hazırlayan: Abdulah Bakır) / A.Yazıcızade. – İstanbul: Çamlica Basim Yayini, – 2017. – s. 73.

[77]Gülensoy T. Orhun’dan Anadoluta türk damğalari (damğalar, imler, enler) / T.Gülensoy. – İstanbul, T.D.A.V. Yayını, – 1989. Nu: 51., s. 32.

[78]Əliyev V.H. Azərbaycanda tunc dövrünün boyalı qablar mədəniyyəti / V.Əliyev. – Bakı: Elm, – 1977. – s. 80.

[79]Əliyev V.H. Culfa arxeoloji tapıntıları // – Bakı: Azərbaycan SSR Elmlər Akademiyasının Xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası, – 1968. № 3, – s. 74, tab. I, 4.

[80]Baxşəliyev V.B. Naxçıvanın qədim tayfalarının mənəvi mədəniyyəti / V.Baxşəliyev. – Bakı: Elm, – 2004. – s. 167, şək, 41, 7.

[81]Xəlilov B. Mahmud Kaşğarinin “Divani lüğət-it-türk” əsərində etnonimlər / B.Xəlilov. – Bakı: Garisma MMC, – 2009. – s. 20.

Aparılan araşdırma zamanı məlum olmuşdur ki, qabların üzərindəki göbələkşəkilli çıxıntılar, konnelyur ornamentlər "Xocalı-Gədəbəy mədəniyyəti" üçün xarakterikdir. Bu dövrün keramika məmulatları içərisində ağ inkrustasiyalı qabların az olması (I Kültəpə, Qazxan abidələrində qeydə alınıb) Naxçıvanın bu tip qabların əsas istehsal ocağı olmaması ilə bağlı olmuşdur. Mərkəzi Avropadan və Kiçik Asiyadan Çinə qədər geniş bir ərazidə yayılmış belə qablar Azərbaycanda "Xocalı-Gədəbəy mədəniyyəti"nin yaradıcıları olan tayfalar tərəfindən düzəldilmişdir. Bu dövrdə də dulusçular tərəfindən düzəldilmiş qabların bir qrupu Cənubi Qafqazın, Şərqi Anadolunun, Urmiya hövzəsinin qabları ilə yaxın bənzərlik təşkil etməsinə baxmayaraq müəyyən lokal xüsusiyyətlərinə görə onlardan fərqlənmiş, Son Tunc-Erkən Dəmir dövrünə aid olmuşdur. Bu isə onunla bağlıdır ki, Tunc dövrünün əvvəlki mərhələlərində olduğu kimi, Son Tunc-Erkən Dəmir dövründə də belə qablar yerli dulusçulular tərəfindən hazırlanmışdır. Bu dövrün keramika məmulatlarında Orta Tunc dövrünün ənənələri ilə yanaşı "Xocalı-Gədəbəy" mədəniyyətinə aid xüsusiyyətlərin olması tayfalararası mədəni-iqtisadi əlaqələrlə bağlılıq təşkil etmişdir. Qarşılıqlı mədəni-iqtisadi əlaqələr bütün sahələr kimi dulusçuluğa da təsir göstərmiş, bu sahədə də mədəni birləşmə prosesi olmuşdur.

Dissertasiyanın **"Nəticə"** hissəsində ümumiləşdirmə aparılmış, problemin öyrənilməsi prosesində əldə edilən son elmi nəticələr təqdim olunmuşdur. Tədqiqat zamanı müəyyən edilmişdir ki, Naxçıvan diyarının əlverişli coğrafi mövqeyi, zəngin təbii sərvətləri Neolit dövründən etibarən insanların dulusçuluq kimi sənət sahəsi ilə məşğul olmasına şərait yaratmışdır. Hər bir dövrün özünəməxsus xarakterik xüsusiyyəti olduğu üçün, bütün dövrlərin dulusçu məmulatları da eyni olmamış, bir-birindən fərqlənmişdir. Eneolit dövründə dulusçuluq Neolit dövrü ilə müqayisədə bir qədər inkişaf etdiyi üçün bu dövrün keramika məmulatları forma və xüsusiyyətlərinə, hazırlanma texnologiyasına, keyfiyyətinə görə Neolit dövrünün materiallarından bir qədər fərqlənmişdir. Tunc dövründə dulusçuluğun ixtisaslaşmış istehsal sahəsinə çevrilməsi keramika məmulatlarının keyfiyyətinə və çeşidinə təsir göstərmişdir. Onların çeşidləri çoxalmış, keyfiyyəti

yaxşılaşmışdır. Neolit və Eneolit dövrlərində olduğu kimi, Tunc dövründə də gil qablar və digər keramika məmulatları dulusçular tərəfindən yerli xammaldan düzəldilmişdir. Bu zaman müəyyən qaydalara əməl edilmiş, bir sıra texnoloji proses ardıcıl yerinə yetirilmişdir. İlk öncə keramika məmulatlarını düzəltmək üçün yararlı olan, keyfiyyətli gilli torpaq xammal seçilmişdir. Seçilmiş xammalı tədarük etdikdən sonra keramika məmulatlarını düzəltmək üçün ondan palçıq xəmiri hazırlamışlar. Bu zaman palçıq kündəsini hər bir keramika məmulatının ölçüsünə (böyüklüyünə, kiçikliyinə) uyğun götürmüşlər. Palçıq kündəsi hazır olduqdan sonra müxtəlif üsulla ondan keramika məmulatı düzəltmişlər. Tunc dövründə dulus çarxından geniş istifadə edilməsi daha çox gil qablar düzəltməyə imkan yaratmışdır. Dulusçuluğun inkişafı ilə əlaqədar olaraq Son Tunc-Erkən Dəmir dövründə əl çarxını ayaqla hərəkət etdirilən dulus çarxı əvəz etmişdir. Ayaq çarxı əl çarxına nisbətən sürətlə fırlandığı üçün qısa müddət ərzində qabları hazırlamaq mümkün olmuşdur. Əl çarxında olduğu kimi, ayaq çarxında da düzəldilən qabın böyüklüyünə görə onun fırlanma sürəti müxtəlif olmuşdur.[82]

Araşdırma zamanı məlum olmuşdur ki, Tunc dövründə dulusçular tərəfindən qabların düzəldilməsi zamanı onların üzərinin anqoblanması və boyanması da tətbiq olunmuşdur. Anqob gil qabların üzərindəki məsamələri örtmək, onların üzərini hamarlamaq üçün istifadə edilmişdir. Anqobsuz düzəldilmiş qablara nisbətən belə qabların görünüşü, keyfiyyəti, su keçirməməzliyi daha yaxşı olmuşdur. Həm anqobda, həm də boyamada müxtəlif boyaq maddələrindən istifadə edilmişdir. Hər hansı bir qabın üzərini rəngli anqobla bəzəmək üçün onun tərkibinə müxtəlif boyalar qataraq, rəngli anqob əldə etmişlər. Boyaq maddələri boyaq bitkilərindən və mineral boya xammallarından alınmışdır. Bu dövrdə dulusçular boyaq bitkilərinin və mineral boya xammallarının adlarını bilməsələr də, uzun müddət apardıqları primitiv təcrübələr yolu ilə bitkilərdən və mineral boya xammallarının-

[82]Xəlilov T.F. Bişmiş torpaq mədəniyyəti: tarixi, texniki məsələləri və yayilma areali haqqinda // Qafqaz tarixinin aktual məsələləri, – Gəncə: – 2015. – s. 343; Xəlilov T.F. Dulusçuluğun öyrənilməsinin aktual məsələləri // – Bakı: Azərbaycan arxeologiyası və etnoqrafiyası, – 2016. – s. 44-45.

dan müəyyən rənglər almağı bacarmışlar. Naxçıvanın Eneolit dövrü abidələrindən əldə edilimiş bir qrup boyalı keramika onu qeyd etməyə əsas verir ki, Tunc dövründən əvvəl də insanlar belə qablardan istifadə etmişlər. Boyalı qablar kimi anqoblu qablar da müxtəlif inkişaf mərhələləri keçmişdir. Buna görə də, anqobun tərkibi, rəngi, istifadəsi və hazırlanma forması bütün dövrlərdə eyni olmamışdır. Anqobla heyvan, quş rəsmləri çəkilməmişdir. Anqoblu qablarda ornament anqobun yayılma xüsusiyyətindən asılı olaraq əsasən enli xətlərdən, dairəvi formalı naxışdan ibarət olmuşdur. Bəzi qablarda anqob onların üzəri ilə yanaşı içərisinə də çəkilmişdir. Qablar düzəldilən zaman onların üzərinin müxtəlif ornamentlərlə naxışlanmasına da diqqət yetirilmişdir. Boyasız qabların üzəri basma, cızma, çərtmə, qazma və s. üsulları ilə naxışlanmışdır. Naxışlar əsasən həndəsi ornamentlərdən ibarət olmuşdur. Boyalı qabların üzəri fırça ilə qırmızı, sarı, qara və digər rənglərlə naxışlanmışdır. Onların üzərində həndəsi naxışlarla yanaşı insan və heyvan təsvirləri də çəkilmişdir. Sadə qablardan fərqli olaraq boyalı qabların düzəldilməsi bir qədər çətin olduğu üçün nisbətən çox vaxt aparmış, müəyyən sənərkarlıq qabiliyyəti tələb olunmuşdur. Hər bir dulusçu öz sənətkarlıq qabiliyyətinə, bacarıq və vərdişlərinə uyğun qablar düzəlt-mişdir. Belə qablar keyfiyyətinə, görünüşünə və üzərindəki təsvir-lərin süjetlərinə görə fərqlənmişdir.[83]

Keramika məmulatlarının düzəldilməsində olduğu kimi, onların bişirilməsində də dulusçular tərəfindən müəyyən qaydalara əməl olunmuş, bir çox texnoloji proses ardıcıl yerinə yetirilmişdir. Çünki, həmin qaydalara əməl olunmadan düzəldilmiş məhsulun keyfiyyəti aşağı olmuş, istifadə edilməmişdir. Öncə onu düzgün qurutmağa çalışmışlar. Keramikanın düzgün qurudulmaması qabın keyfiyyətinin aşağı düşməsinə səbəb olmuşdur. Məhsul düzgün qurudulduqdan sonra onu dulus kürəsində bişirmişlər. Dulus kürələrinin meydana çıxmasına qədər keramika məmulatları açıq yerdə və çuxurda bişiril-

---

[83]Xəlilov T.F. Dulusçuluğun öyrənilməsinin aktual məsələləri // – Bakı: Azərbaycan arxeologiyası və etnoqrafiyası, – 2016. – s. 50; Xəlilov T.F. Naxçıvanın Tunc dövrü dulusçuluq sənəti // – Bakı: Azərbaycan Arxeologiyası, – 2019. c. 22, № 2, – s. 30-39.

mişdir. Bişirilmə prosesi zamanı qaba əvvəlcə bir qədər zəif istilik verilmiş, sonra isə onun tamamilə bişməsi üçün zəruri olan istilik yaradılmışdır. Qab bişdikdən sonra onu soyuyana qədər gözləmiş, sonra kürədən çıxarmışlar. Keramika məmulatlarının rəngi onun hazırlandığı palçıq xəmirinin tərkibi ilə bağlı olmuşdur. Palçıq xəmiri bişərkən onun tərkibindəki üzvü və qeyri üzvü maddələrlə bağlı olaraq gil qablar və digər keramika məmulatları müxtəlif rəngə çevrilmişdir. Keramika məmulatlarının üzərindəki bişməmiş təbəqənin olması, onların səthindəki ləkələr də bişmə prosesi ilə bağlı olmuşdur.[84]

Naxçıvan diyarının Tunc dövrü abidələrindən I Kültəpə, II Kültəpə, Şortəpə, Çalxanqala yaşayış yerlərində dulus kürələrinin qalıqları qeydə alınmışdır. Şortəpə, Çalxanqala yaşayış yerləri ilə müqayisədə I Kültəpə və II Kültəpə abidələrində qeydə alınmış dulus kürələri nisbətən yaxşı saxlanıldığı üçün onların tədqiqi nəticəsində Erkən və Orta Tunc dövründə Naxçıvan diyarında dulusçuların istifadə etdiyi kürələrin quruluşu, keramika məmulatlarının bişirilmə prosesi, istifadə edilmiş yanacaq vasitələri haqqında hərtərəfli və geniş elmi biliklər əldə etmək mümkün olmuşdur. Erkən Tunc dövrünə aid I Kültəpə abidəsinin üçüncü, dördüncü, beşinci və II Kültəpə yaşayış yerinin yeddinci, onbirinci tikinti qatlarında dulus kürəsinin qalıqları aşkar olunmuşdur.

Orta Tunc dövrünə aid dulus kürələri II Kültəpədə xeyli sayda qeydə alınmışdır. II Kültəpə yaşayış yerində Orta Tunc dövrü ilə yanaşı Erkən Tunc dövrünə aid gil qabların və dulus kürəsinin qalıqlarının aşkar olunması onu qeyd etməyə əsas vermişdir ki, bu yaşayış yeri həm Erkən, həm də Orta Tunc dövründə Naxçıvanın əsas dulusçu mərkəzi olmuşdur. Bu abidədə kürələrlə yanaşı Tunc dövrünə dulusçu emalatxanasının qalıqlarının qeydə alınması bu dövrün dulusçuluq sənəti haqqında geniş və hərtərəfli məlumat əldə etməyə im-

[84]Xəlilov T.F. Bişmiş torpaq mədəniyyəti: tarixi, texniki məsələləri və yayilma areali haqqinda // Qafqaz tarixinin aktual məsələləri, – Gəncə: – 2015. – s. 345; Xəlilov T.F. Dulusçuluğun öyrənilməsinin aktual məsələləri // – Bakı: Azərbaycan arxeologiyası və etnoqrafiyası, – 2016. – s. 46- 47.

kan vermişdir. Aparılan araşdırma nəticəsində dulusçu kürəsinin, emalatxanasının quruluşu, iş prinsipi və digər aktual məsələlər haqqında geniş məlumat əldə etmək mümkün olmuşdur. Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, Tunc dövrünün dulusçu emalatxanaları çay daşından və bişmiş kərpicdən dördkünc planda tikilmişdir. Dulus kürələrinin düzəldilməsində bişmiş kərpiclə yanaşı, möhrədən də istifadə edilmişdir. Onlar künbəzvari formada, dairəvi və dördkünc planda olmuşdur. Hər birinin yanma kamerası (odluq) ilə bişmə kamerası (qabxana) bir-birindən ayrı düzəldilmişdir. Yanma kamerasında odun yaxşı alovlanması üçün böyük, bişmə kamerasından yuxarıda isə alovun tədricən çölə çıxması üçün kiçik baca qoyulmuşdur. Onlar tikinti texnikasına və arxitektura quruluşuna görə "Ağ dəniz" tipli kürələrlə yaxın bənzərlik təşkil etmişdir. I Kültəpə və II Kültəpə abidələrindəki kürələrin ətrafından aşkar olunmuş yanmış odun, heyvan və quş sümüklərinin qalıqları və digər arxeoloji materiallar dulusçuların istifadə etdiyi yanacaq vasitələri haqqında məlumat əldə etməyə imkan verir. Həm emalatxana yerlərindən, həm də kürələrin ətrafından tapılmış daşdan, müxtəlif heyvan sümüklərindən və s. düzəldilmiş maddi mədəniyyət nümunələrinə əsasən qeyd etmək olar ki, bu dövrdə dulusçuların istifadə etdiyi əmək alətləri daş, sümük, ağac və tuncdan düzəldilmişdir. II Kültəpədə qeydə alınmış emalatxanalardakı içərisində müxtəlif rəngli (sarı, çəhrayı, ağ) süxur qalıqları, parıltılı minerallar, boyaq maddələri olan gil qablar, oradakı kürələrin bir neçəsinin qablar düzəldilən hissəsində aşkar olunmuş oxra qalığı, Orta Tunc dövrü dulusçuları tərəfindən istifadə olunmuş boyalar, onların tərkibi haqqında məlumat əldə etməyə imkan vermişdir. Aparılan araşdırma zamanı məlum olmuşdur ki, Erkən Tunc dövründə olduğu kimi, bu dövrdə də gil qablar və boyaq maddələri yerli xammaldan düzəldilmişdir. II Kültəpənin mükəmməl quruluşlu dulus kürələrinin, dulusçu məhəlləsinin, emalatxanalarının qalıqları, oradan aşkar olunmuş maddi mədəniyyət nümunələri (içərisində boyaq maddəsi, on beş ədəd bütöv boyalı qab, toplu şəklində beş yüzdən artıq sadə və boyalı gil qab parçaları və s.) Orta Tunc dövründə bu yaşayış yerinin Azərbaycanın əsas dulusçuluq mərkəzlərindən biri

olduğunu, orada şəxsi təlabatla yanaşı, mübadilə üçün də gil qabların düzəldildiyini qeyd etməyə əsas verir.[85]

Dulusçuluğun yayılma arealı ilə bağlı aparılan araşdırma zamanı məlum olmuşdur ki, Naxçıvan diyarının bütün bölgələrində Tunc dövrünə aid dulusçu məmulatları yayılmışdır. Onlar həm yaşayış yerlərində, həm də nekropollarda qeydə alınmışdır. Yaşayış yerlərinin hamısı eyni olmamış, tikinti-arxitektura quruluşuna görə bir-birindən fərqlənmişdir. Onların bir qisminin ətrafı hasarlı, bəziləri isə hasarsız olmuşdur. Ətrafı hasarsız yaşayış məskənləri dağlıq və dağətəyi yerlərdə yayılmışdır. Bu ərazidəki bəzi yaşayış yerlərinin (Qız qalası, Bəzəkli qalası, Vayxır qalası, Çalxanqala və s.) ətrafı iri, ağır, yonulmamış qaya parçaları ilə heç bir bərkidici məhlul olmadan tikilmişdir. Belə yaşayış yerləri siklopik tikililər qrupuna aiddir. Aran ərazidəki yaşayış yerlərinin əksəriyyəti müəyyən plan əsasında tikilmişdir. Onların bir çoxu (I Kültəpə, II Kültəpə, Şahtaxtı və s.) iri tayfa birliyinin mərkəzi olmuşdur. İnsanlar əlverişli təbii-coğrafi şəraitə malik olan yerlərə – çay və ya bulaq kənarlarına üstünlük vermiş, əsasən belə ərazilərdə yaşamışlar. Yaşadıqları yerin təbii-coğrafi şəraitinə uyğun olaraq oturaq və ya mövsümi həyat tərzi keçirmiş, müxtəlif təsərrüfat sahələri ilə məşğul olmuşlar. Buna görə də Tunc dövrünə aid abidələr həm aran, həm də dağlıq və dağətəyi ərazilərdə yayılmışdır. Aran ərazidəki torpaqlar cənub-şərqdə Araz ovalığını, şimalda Arpaçay, Naxçıvançay və Gilançay vadilərinin Araza qovuşan hissəsini, şimal-qərbdən cənub-şərqə doğru geniş bir ərazini əhatə etmişdir. Zəngəzur silsiləsi boyunca uzanan geniş bir ərazi dağlıq ərazidəki torpaqlardan ibarət olmuşdur. Aran ərazidəki torpaqlarda insanlar oturaq həyat tərzi keçirmiş, əsasən əkinçiliklə məşğul olmuşlar. Dağlıq və dağətəyi ərazidəki torpaqlar alp və subalp çəmənlikləri ilə zəngin olduğu üçün, orada yaşayan insanlar əsasən heyvandarlıqla məşğul olmuş, yarımköçəri həyat tərzi keçirmişlər. Hər iki qrup abidələrdə ən çox aşkar olunan dulusçu məmulatı gil

[85]Halilov T. Nahçıvan bölgesinin Tunç çağı yerleşimlerinde bulunan çömlekçi fırınları ve atölyeleri // – İstanbul: Art-Sanat dergisi, 2022. sayı 17. – s. 177-191.

qablardan ibarət olmuşdur. Onlar bütöv və ya qırılmış şəkildə qeydə alınmışdır. Gil qablarla yanaşı, təkər, heyvan, insan fiqurları, dulusçu kürələrinin, emalatxanalarının, yanacaq vasitələrinin, boyaq maddələrinin, əmək alətlərinin qalıqları və digər maddi mədəniyyət nümunələri də aşkar edilmişdir.

Mədəni təbəqənin səviyyəsinə görə abidələrdən aşkar olunan dulusçu məmulatlarının miqdarı eyni olmamış, bir-birindən fərqlənmişdir. Dağlıq və dağətəyi torpaqlardakı mədəni təbəqəsi aşağı olan abidələrdə nisbətən az, aran ərazidəki mədəni təbəqəsi qalın olan abidədə isə xeyli miqdarda dulusçu məmulatları aşkar olunmuşdur. I Kültəpə, II Kültəpə, Şahtaxtı və s. kimi yaşayış yerləri buna sübutdur. Dağlıq və dağətəyi yerlərdəki abidələrdə sadə (boyasız) qablar, aran ərazidəki abidələrdə isə həm sadə (boyasız), həm də boyalı qablar geniş yayılmışdır. Aran ərazisindəki arxeoloji abidələrdə boyalı qabların geniş yayılması onu qeyd etməyə əsas verir ki, bu tip keramikaların düzəldilməsində insanların oturaq həyat tərzi əsas yer tutmuşdur. Mövsümi həyat tərzi keçirmiş dulusçuların belə qabları düzəltmək üçün vaxtı olmadığına görə, onlar belə qabların hazırlanmasına fikir verməmişlər.[86] Naxçıvan diyarının Erkən Tunc dövrü abidələrindən aşkar olunan saxsı məmulatı qara, qırmızıya bənzər, boz, qonur, çəhrayı astarlı, nazik, qalın divarlı cilalı və cilasız düzəldilmişdir. Keramika məmulatları gil qablardan, ocaqlardan, manqallardan, miniatür heyvan fiqurlarından, təkər modellərindən və digər artefaktlardan ibarətdir. Heyvan fiqurları hələlik Naxçıvan diyarının Erkən Tunc dövrü abidələrinin hamısında qeydə alınmamış, yalnız bir neçəsində–I Kültəpə, Ovçulartəpəsi, I Maxta yaşayış yerlə-

[86]Xəlilov T.F. Bişmiş torpaq mədəniyyətinin Naxçıvan abidələrində izləri // Azərbaycanşunaslığın aktual problemləri (Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş IX Beynəlxalq Elmi Konfransın materialları, Bakı: 3-4 may, – 2018, I his. – s. 626-628; Halilov T. Naxçvanda Son Tunç-Erken Demir çaği yerleşimlerinin yerleşme alani ve onlardan bulunmuş arkeolojik bulgular // 12 Uluslararsı Türk Dünyası Sosial Bilimler kongresi (30 Ağustos-06 Eylül 2014, Kazan –Tataristan (Rusya Federasyonu), İstanbul, – 2014. – s. 23-31.

rində aşkar olunmuşdur. Bu keramika məmulatları öküz, at, qoç, it fiqurlarından ibarət olmuşdur. Onların bəzilərinin üzərində müəyyən sxematik ornamentlər çəkilmişdir. Aparılan araşdırma zamanı məlum olmuşdur ki, bu artefaktlar bədii plastika nümunələrindəndir. Onlar Naxçıvan diyarının bu dövr tarixini öyrənmək üçün mühüm elmi əhəmiyyət daşıyır. Azərbaycanın digər bölgələri ilə yanaşı, Aralıq dənizi hövzəsində, Nil, Dəclə, Fərat, Hind çayı vadilərində, İranda, Orta Asiyada və digər yerlərdə belə keramika məmulatları aşkar olunmuşdur. Öküz, at, qoç, it və s. bir çox heyvanların insanların təsərrüfat həyatı ilə yanaşı dini-ideoloji görüşlərində özünəməxsus yer tutduğunu əsas götürsək, belə bir nəticəyə gəlmək olar ki, gil heyvan fiqurları bu dövr insanların mənəvi mədəniyyəti, dini-ideoloji görüşləri ilə bağlı olmuş, “heyvan kultu”nu simvolizə etmişdir.[87]

Heyvan fiqurları kimi, təkər modelləri də Naxçıvan diyarının Erkən Tunc dövrü abidələrinin hamısında qeydə alınmamış, yalnız bir neçəsində –I Kültəpə, Ovçulartəpəsi, I Maxta yaşayış yerlərində aşkar olunmuşdur. Qeyd olunan artefakla bağlı tərəfimizdən aparılan araşdırma zamanı məlum olmuşdur ki, digər keramika məmulatı kimi, onların da yaxın bənzərləri müxtəlif yerlərdə aşkar olunmuşdur. Naxçıvandakı Erkən Tunc dövrü abidələrindən fərqli olaraq digər yerlərdə belə keramika məmulatları yaşayış yerlərindən başqa qəbirlərdə də tapılmışdır. Bəzi abidələrdə eyni zamanda təkərlə yanaşı, gil araba fiqurları da qeydə alınmışdır. Təkərin meydana çıxmasından sonra arabanın insanların həyatında mühüm yer tutduğunu, yaşayış yerləri ilə yanaşı, qəbirlərdə də belə keramika məmulatlarının aşkar olunduğunu əsas götürsək, qeyd etmək olar ki, digər keramika məmulatları kimi, onlar da təsadüfən düzəldilməmiş, müəyyən məntiqi əsasla hazırlanmışdır. Bu tip keramika məmulatları prototürk mədəniyyətində özünəməxsus yer tutan, mənbələrdə müxtəlif adlarla ("bir heyvan qoşma mədəniyyəti", “atlı araba mədəniy-yəti”) tanınan,

[87]Halilov T. Nahçivanın haykaltaraşlık tarihi // – İstanbul: Eurasian Academy of Sciences Eurasian Art & Humanities Journal, – 2015. – volume 2, – s. 29-38; Halilov T. Nahçivan'daki Erken Tunç çagi yerlesimlerde bulunmus kil hayvan figürinleri // – Kars: Avrasya Uluslararası Arastırmalar Dergisi, – 2013. Cilt 2, sayı 3, – s. 1-10.

“araba mədəniyyəti”ni simvolizə etmiş, bu mədəniyyətin Naxçıvan diyarını da əhatə etdiyini sübut etmişdir. Belə keramika məmualatlarının Eneolit dövrü abidələrində aşkar olunması İkiçayarasında olduğu kimi, Naxçıvan diyarında da bu mədəniyyətin yaranma tarixinin qədim olduğunu sübut edir.[88]

Naxçıvan diyarının Erkən Tunc dövrü abidələrində aşkar olunan ocaqlar və manqallarla bağlı araşdırma apararkən məlum olmuşdur ki, ocaqlar nalşəkilli, dördkünc, manqallar isə dairəvi formada düzəldilmişdir. Onlar həm sadə, həm də bir qədər fərqli quruluşda olmuşlar. Heyvan fiqurları kimi onlar da təsadüfən düzəldilməmiş, müəyyən məqsədlə istifadə üçün hazırlanmışdır. Onların hamısından od qalamaq, yemək bişirmək mümkün olsa da, təyinatına görə eyni olmamış, ayrı-ayrı məqsədlər üçün istifadə edilmişdir. Ocaqların bir qrupunun üzərinə qırmızı boyanın, müxtəlif ornamentlərin çəkilməsi, bəzilərinin üzərində buynuza bənzər halqa formalı çıxıntıların, yarımşar formalı qulpların qoyulması faktları onu qeyd etməyə əsas verir ki, onlardan yemək bişirmək, isinmək, evləri qızdırmaqla yanaşı müəyyən ritual ayinlərin icrasında da istifadə etmişlər.[89]

Naxçıvan diyarının Erkən Tunc dövrü arxeoloji abidələrində aşkar olunan keramika məmulatları içərisində dairəvi, silindrik, konsvari formada düzəldilmiş miniatür artefaktlar da özünəməxsus yer tutur. Aparılan araşdırma zamanı məlum olmuşdur ki, dairəvi, diskşəkilli olanlardan fərqli olaraq, silindrik və konsvari formalılar azlıq təşkil edir. Belə keramika məmulatı hələlik yalnız I Maxta yaşayış yerində qeydə alınmışdır. Diskşəkilli olanlar isə Tunc dövrünün bütün mərhələlərində yayılmışdır. Onların əksəriyyəti sadə düzəldilmiş, bəzilərinin üzərində kiçik deşik açılmışdır. Bu keramika məmulatlarından müxtəlif məqsədlə istifadə edilmişdir. Üzərində deşik olan

---

[88] Halilov T. Araba kültürünün Nahçıvan abidelerimde izleri (Erken Tunç çağı bulguları esnasında // Hoca Ahmet Yesevi Uluslararası Bilimsel Araştırmalar Kongresi – Adyaman: 26-27 Ağustos 2019, – 2019. – s. 1175-1182; Halilov T. Nahçıvan bölgesinin Erken Tunç çağı yerleşimlerinde bulunan pişmiş toprak objeler // – İstanbul: Art– Sanat dergisi, – 2020. sayı. 13, – s. 189–203.

[89]Halilov T. Seramik bulguların işığında Nahcivan’ın Erken Tunç çağı kültürü // Uluslararası Yönetim ve Sosyal Araştırmalar Dergisi, – 2016. cilt 3, sayı 5, – s. 1-7.

diskşəkili keramikalardan həm iy başlığı kimi istifadə etmək mümkün olmuş, həm də iqtisadi və mədəni əlaqələr zamanı göndərilən məhsulun növünü, kimə mənsub olduğunu bildirmək üçün məhsulun üzərinə bağlamışlar. Silindrik formada düzəldilənlərdən isə mübadilə zamanı hər hansı bir məhsulun sayını bildirmək üçün istifadə etmişlər.[90]

Araşdırmalardan məlum olmuşdur ki, Erkən Tunc dövrünə aid üzərində qara ləkələr, bişməmiş təbəqə olan qablar nisbətən pis, nazik divarlı cilalanmış qablar isə yaxşı bişirilmişdir. Onlar boz, qonur, qara, çəhrayı rəngli, anqoblu, anqobsuz, cilalı, cilasız, qulplu, qulpsuz düzəldilmişdir. Anqob yalnız qabların xarici səthinə deyil, bəzən də içərisinə çəkilmişdir. Bəzi qabların üzəri qara rəngli boya ilə örtülmüşdür. Bu dövrdə üzərində yarımşar, halqaşəkilli qulp olan, ağzının kənarı dördkünc formada xaricə qatlanmış qablar geniş yayılmışdır. Onlar Erkən Tunc dövrü mədəniyyətinin əsas keramika məmulatlarındandır. Bəzi qablarda Eneolit dövrü mədəniyyətinə məxsus əlamətlər olsa da, onlar bir-birindən fərqlənmiş, aid olduğu dövrün xüsusiyyətini əks etdirmişdir. Qabların düzəldilməsi, naxışlanması Eneolit dövrü ilə müqayisədə daha mükəmməl olmuş və özünəməxsus spesifik xüsusiyyəti ilə seçilmişdir. Erkən Tunc dövrü üçün xarakterik olan yeni metodlardan və naxış motivlərindən istifadə edilmişdir. Boz, qonur, çəhrayı gilli qablar Eneolit dövrü ilə yanaşı Tunc dövrünün bütün mərhələlərində yayılsa da, qara cilalılar yalnız Erkən Tunc dövrü üçün xarakterik olmuşdur.

Qabların naxışlanmasında çızma, qazma, basma, qabartma və digər texniki metodlardan, oval, yuvarlaq batıqlardan, həndəsi ornamentlərdən istifadə edilmişdir. Həndəsi ornamentlər həm sadə, həm də mürəkkəb süjetdə çəkilmişdir. Naxışlar onlara gözəl görünüş verməklə yanaşı, müəyyən semantik mənaya da malik olmuşdur. Onlar dulusçuların bacarıq və vərdişlərini, sənətkarlıq qabiliyyətini əks etdirməklə yanaşı, Tunc dövrü insanlarının dini-ideoloji görüşlərini, düşüncə tərzini, bədii estetik zövqünü əks etdirmişdir. Qabların

[90]Halilov T. Nahçıvan bölgesinin Erken Tunç çağı yerleşimlerinde bulunan pişmiş toprak objeler // – İstanbul: Art-Sanat dergisi, – 2020. sayı. 13, – s. 189-203.

üzərindəki ornamentlərin bir qrupunun qədim türk mədəniyyətində geniş yayılması, türk tayfalarının damğaları, işarələri və simvolları ilə yaxın bənzərlik təşkil etməsi Naxçıvan diyarının Erkən Tunc dövrü mədəniyyətinin mənsubiyyətini öyrənmək baxımından mühüm elmi əhəmiyyət daşıyır. Bu bölgənin prototürk etnoslarının məskunlaşdığı əsas ərazilərdən biri olduğunu qeyd etməyə əsas verir.[91]

Erkən Tunc dövünə aid ağız kənarı relsşəkilli formada düzəldilmiş, beşdişli daraqla naxışlanmış, yuvarlaq deşik olan qabların bənzərləri Şərqi Anadoluda və digər yerlərdəaşkar olunsa da, yerli dulusçu məmulatı olduğu üçün forma və xüsusiyyətinə görə onlardan fərqlənir[92]. Ən qədim keramika məmulatlarının e.ə. V minilliyin ikinci yarısına aid olması Naxçıvan diyarının Kür-Araz mədəniyyətinin qədim mərkəzlərindən biri olduğunu sübut edir. Bu dövrə aid gil qabların bir qismində Eneolit dövrü mədəniyyətinə aid xüsusiyyətlərin olması Naxçıvanın Kür-Araz mədəniyyətinin Eneolit mədəniyyəti ilə bağlılığını, bu mədəniyyətin Eneolit mədəniyyətindən qaynaqlanaraq meydana çıxdığını və inkişaf etdiyini göstərir.[93]

Erkən Tunc dövründə olduğu kimi, Orta Tunc dövründə də dulusçuluq inkişaf etmişdir. Orta Tunc dövrü mədəniyyəti Naxçıvanda e.ə. III minilliyin ikinci yarısından başlamışdır. Erkən, orta və son mərhələlərdən ibarət ol-muş, e.ə. III minilliyin ikinci yarısından – e.ə. II minilliyin son rübbünə qədər davam etmişdir. Araşdırmalardan məlum olmuşdur ki, Orta Tunc dövründə Naxçıvan dulusçuları tərəfindən gil qablarla yanaşı, müxtəlif formalı keramika məmulatları da düzəldilmişdir. Qızılburun nekropolundan aşkar olun-

---

[91]Halilov T. Nahçıvan bölgesi Erken Tunç çağı seramik desenlerinin yayılım alanı ve anlamı hakkında // – İstanbul: İBAD Sosial Bilimler dergisi, 2017. cilt 2, – s. 23-33; Halilov T. Tunç çağı seramiklerinin desenleri işığında Nahcıvan'dan Orhun'a prototürk damga ve işaretleri // –Kırgızistan Journal of Social Studies, – 2019. Cilt 8, sayı 1, – s. 883-893.

[92]Xəlilov T.F. Naxçıvanın Erkən Tunc dövrü keramikaları üzərindəki ornamentlər haqqında // – Bakı: Azərbaycan arxeologiyası, – 2017, №1, – s, 58-69; Halilov T. Nahçıvanda Tunç çaği seramiklerinin desen motifleri // İstanbul: Art-Sanat, – 2017. sayı 8, – s. 1-7.

[93] Xəlilov T.F. Naxçıvanın Erkən Tunc dövrü dulusçuluq məhsulları // – Naxçıvan: Naxçıvan Dövlət Unversitetinin Elmi əsərləri, – 2016. № 5 (79), – s. 97-103.

muş kişi fiquru, dairəvi formalı miniatür keramika parçaları belə arxeoloji materiallardandır. Digər keramika məmulatları kimi, onlar da Naxçıvan diyarının bu dövr dulusçuluq sənətini dərindən öyrənmək üçün mühüm elmi əhəmiyyət daşıyır. Erkən Tunc dövrünün gil heyvan fiqurları kimi, Qızılburun kişi fiqurları da Naxçıvanın qədim dövr tarixinə aid maraqlı elmi əhəmiyyət kəsb edən keramika məmulatlarındandır. Onlardan birinin papaqlı, ayaqqabılı, paltarlı şəkildə düzəldilməsinə əsasən Orta Tunc dövrünün geyim mədəniyyəti haqqında məlumat əldə etmək mümkün olmuşdur. Orta Tunc dövrünün geyimləri haqqında hələlik bu insan fiqurundan başqa heç bir maddi mədəniyyət nümunəsi Naxçıvanda aşkar olunmayıb. Qızılburun kişi fiqurlarının təyinatı ilə bağlı araşdırma apararkən onların məbəd yerindən tapılmasına, məbəd yerindəki daşlardan birinin üzərində ibadət edən insan təsvirinin olmasına istinad etsək, ehtimal etmək olar ki, bu keramika məmulatları “Ata-Tanrını” simvolizə etmiş, “Əcdadlar kultu” ilə bağlı müəyyən ayinlərin icrasında istifadə edilmişdir.[94]

Erkən Tunc dövründən fərqli olaraq, Orta Tunc dövründə  sadə qablarla yanaşı, boyalılar da geniş yayılmışdır. Onlar həm sadə, həm də bir qədər mürəkkəb süjetdə çəkilmişdir. Belə qablar keyfiyyətinə və görünüşünə görə digərlərindən fərqlənir. Onlar monoxrom (birrəngli) və polixrom (çoxrəngli) boyalıdır. Onların hamısı yerli dulusçu emalatxanalarında hazırlanıb. Sadə qablar əsasən boz, boyalılar isə çəhrayı rəngdə düzəldilib. Sadə qabların bir qismi cilalı, bir qrupu cilasızdır. Bir çoxunun üzərində heç bir naxış çəkilməyib. Bəziləri cızma və basma üsulu ilə həndəsi ornamentlərlə, sxematik işarələrlə naxışlanıb. Sadə qablardan fərqli olaraq boyalı qabların naxışlanmasında müxtəlif rənglərdən və çoxlu ornamentlərdən istifadə edilib.

Bu dövrdə həndəsi ornamentlərlə yanaşı heyvan, insan, quş təsvirləri də geniş yayılmışdır. Həndəsi ornamentlərlə müqayisədə

---

[94]Xəlilov T.F. Naxçıvan bölgəsinin Tunc dövrü abidələrində aşkar olunan gil insan fiqurları haqqında // Naxçıvan: AMEA Naxçıvan Bölməsinin Xəbərləri, –  2022. № 1, – s. 90-94; Halilov T. Nahçivan’da Orta Tunç Çağı buluntuları işığında sanatsal yapı // – Kilis: Asia Minor Studies (international journal of social sciences), – 2014. cilt, 2, sayı 3, – s. 12-29.

heyvan, quş və insan rəsmli qablar bir qədər gec meydana çıxmışdır. Monoxrom (birrəngli) boyalı qablar Orta Tunc dövrünün əvvəllərində meydana çıxmışdır. Monoxrom (birrəngli) boyalı qablar e.ə. 2300–e.ə. 1900-cü illəri, polixrom (çoxrəngli) boyalı qablar e.ə. 1900 – e.ə. 1700-cü illəri əhatə etmişdir. Həm monoxrom (birrəngli), həm də polixrom (çoxrəngli) boyalı qabların düzəldilməsi prosesi müxtəlif ara mərhələlərdən keçmişdir. Üzərində anqob olan və ya olmayan bütün qabların naxışlanmasında boyadan istifadə edilmişdir. Monoxrom (birrəngli) boyalı qabların üzəri qırmızı anqobla örtülmüş, gövdəsinin yuxarı hissəsi tünd qara rəngli həndəsi motivlərlə, nazik xətlərlə simmetrik naxışlanmışdır. Polixrom (çoxrəngli) boyalı qabların üzərində müxtəlif süjetli təsvirlər ağ, qara, sarı rənglərlə çəkilmişdir. Monoxrom (birrəngli) qablarla müqayisədə polixrom (çoxrəngli) boyalıların üzərindəki naxışlar bir qədər yüksək zövq və səliqə ilə çəkilmişdir. Onların bir qismi sadə olmuş, bir qrupu isə müəyyən süjeti bildirmişdir. Erkən Tunc dövrünün naxış motivləri kimi, bu dövrdə də gil qabların üzərindəki ornamentlərin bir qrupu geniş yayılma arealına malik olmuşdur. Onların yaxın bənzərləri prototürk mədəniyyətində yayılmışdır.[95]

Boyalı qablar əsasən aran ərazidəki arxeoloji abidələrdə yayılmışdır. Azərbaycanın digər bölgələrindən fərqli olaraq, Naxçıvanda boyalı qablarla təmsil olunan abidələrin çoxluğu onların həm yaşayış yerlərindən, həm də qəbir abidələrindən ibarət olması, qonşu ölkələrdən fərqli bu bölgədə həm monoxrom (birrəngli), həm də polixrom (çoxrəngli) rəngli boyalı qabların geniş yayılması, bu mədəniyyətin dörd inkişaf mərhələsindən keçməsi, Naxçıvanın “Boyalı qablar mədəniyyəti”nin əsas mərkəzlərindən biri olduğunu sübut etmişdir.[96]

---

[95]Halilov T. Tunç çağı seramiklerinin desenleri ışığında Nahcıvan’dan Orhun’a prototürk damga ve işaretleri // – Kırgızistan: Manas Journal of Social Studies, – 2019. Cilt 8, sayı 1, – s. 883-893; Halilov T. Nahçıvan Toprağının Orta Tunç Çağı Seramiklerinin Süsleme (Ornamental) Özelliği // Tarih ve kültür ekseninde Orta Aras havzası uluslararasi sempozyumu, – Nahçıvan, 17– 19 Kasım 2016, – Ankara: – 2018. – s. 437-453.

[96]Halilov T. Nahçivan’da Orta Tunç Çağı buluntuları işığında sanatsal yapı // – Kilis: Asia Minor Studies (international journal of social sciences), – 2014. cilit, 2,

Aparılan araşdırma zamanı məlum olmuşdur ki, "Boyalı qablar mədəniyyəti" Naxçıvanla yanaşı Cənubi Qafqazda, Şərqi Anadoluda və Urmiya hövzəsində də yayılmışdır. Şərqi Anadoluda və Urmiya hövzəsində olduğu kimi, Naxçıvan diyarında da boyalı qabların çeşidi çox olmuş və bu mədəniyyət müxtəlif inkişaf mərhələləri keçmişdir. Naxçıvan dulusçuları tərəfindən düzəldilmiş boyalı qablar Cənubi Qafqaz, Şərqi Anadolu və Urmiya hövzəsinin keramikası ilə oxşarlıq təşkil etsə də, yerli dulusçuluq məmulatları olduğu üçün, bəzi xüsusiyyətlərinə görə onlardan fərqlənir.[97]

Orta Tunc dövründə olduğu kimi, Son Tunc-Erkən Dəmir dövründə də dulusçuluq inkişaf etmiş, qədim ustalar gil qablarla yanaşı, müxtəlif formalı keramika məmulatları da hazırlamışlar. Möhürlər, insan fiqurları belə artefaktlardandır. Onlar da təsadüfən düzəldilməmiş, müxtəlif məqsədlə istifadə edilmişdir. Orta Tunc dövrünün kişi fiqurları kimi, bu dövrün insan fiqurları da təsadüfən hazırlanmamış, onlardan "Əcdadlar kultu" ilə bağlı müəyyən ayinin icrasında istifadə edilmişdir.[98] Möhürlər mülkiyyətə sahibliyi, idarəçiliyi bildirmək üçün olmuşdur. Onların üzərindəki hər bir təsvirin, sxematik işarənin müəyyən məntiqi əsası olmuşdur. Bu təsvirlər insanların dini-ideoloji görüşlərini, bədii-estetik düşüncə tərzini əks etdirməklə yanaşı, möhürün kimə məxsus olduğunu da, bildirmişdir.[99]

Son Tunc-Erkən Dəmir dövründə ayaqla hərəkət etdirilən dulus çarxından istifadə edilməsi qabların həm keyfiyyətinə, həm də çeşidinə böyük təsir göstərmişdir. Onlar keyfiyyətli düzəldilmiş, çoxçeşidli olmuşdur. Sadə qablarla yanaşı cilalı, mürəkkəb naxışlı, boya-

---

sayı 3, – s. 12-29; Halilov T. Nahçıvanda Boyalı kablar kültürü // Ankara: TÜBAR. Hacı Bayram Veli Üniversitesi, – 2011. sayı 30, – s. 166-176.

[97]Halilov T. Nahçıvan Bölgesinin Orta Tunç Çağı Kil Kapları Üzerindeki Desenlerin Yayılım Alanı Ve Anlamı Hakkında // – Trabzon: Karen, – 2018. cilt 4, sayı 5, – s. 141-154

[98]Xəlilov T.F. Naxçıvan bölgəsinin Tunc dövrü abidələrində aşkar olunan gil insan fiqurları haqqında // Naxçıvan: AMEA Naxçıvan Bölməsinin Xəbərləri, – 2022. № 1, – s. 90-94.

[99]Xəlilov T.F. Naxçıvandakı Son Tunc dövrü abidələrdən aşkar olunmuş gil möhürlər haqqında // Naxçıvan: AMEA Naxçıvan Bölməsinin Xəbərləri, – 2019. № 3, – s. 74-81.

lı qablar da hazırlanmışdır. Onlardan məişətdə və təsərrüfatda geniş istifadə edilmişdir. Son Tunc-Erkən Dəmir dövünə aid boyasız qablar əsasən boz, açıq qara, boyalılar isə çəhrayı rəngli düzəldilmişdir. Orta Tunc dövründə olduğu kimi, boyasız qablar əsasən dağlıq və dağətəyi yerlərdə, boyalılar isə aran ərazidə olan abidələrdə yayılmışdır.[100] Boyasız qabların üzəri basma, cızma üsulu ilə, həndəsi, ştamp və konnelyur ornamentlə, qulaqcıqşəkilli, göbələkvari çıxıntılarla bəzədilmişdir. Erkən və Orta Tunc dövrünün naxış motivləri kimi, bu dövrdə də gil qabların üzərindəki ornamentlərin bir qrupu geniş yayılma arealına malik olmuşdur. Onların yaxın bənzərləri prototürk mədəniyyətində yayılmışdır[101]. Həm sadə, həm də boyalı qabların bir qrupunun forma və xüsusiyyətində Orta Tunc dövrünün ənənələri saxlanılaraq inkişaf etdirilmişdir. Boz rəngli gil qabların bəziləri Dəmir dövrünün orta mərhələsinin qabları ilə bənzərlik təşkil etsə də, müəyyən lokal xüsusiyyətlərinə görə onlardan fərqlənmişdir.

Bu dövrün boyalı qabları əsasən polixrom (çoxrəngli) rəngli hazırlanmışdır. Onların rənglənməsində qırmızı, qara, sarı və başqa rənglərdən istifadə edilmişdir. Orta Tunc dövründə olduğu kimi, bu dövrdə də dulusçular tərəfindən düzəldilmiş boyalı qabların bir qrupunun yaxın bənzərləri Cənubi Qafqazda, Şərqi Anadoluda və Urmiya hövzəsində yayılmışdır. Bir qrup qablar isə özünəməxsus xüsusiyyətləri ilə fərqlənərək Son Tunc-Erkən Dəmir dövrünə aid olmuşdur. Bu isə onunla bağlıdır ki, Orta Tunc dövründə olduğu kimi, Son Tunc-Erkən Dəmir dövründə də boyalı qablar yerli istehsal ocaqlarında dulusçular tərəfindən düzəldilmişdir.

Cənubi Qafqazın, Şərqi Anadolunun və Urmiya hövzəsinin həmdövr abidələrində qeydə alınan artefaktlarla ortaq əlamətlərin olması mədəniyyətlərarası əlaqəylə, mədəniyyətlərin bir-birinə təsir etməsi

---

[100]Halilov T. Naxçvanda Son Tunç– Erken Demir çaği yerleşimlerinin yerleşme alani ve onlardan bulunmuş arkeolojik bulgular // 12 Uluslararsı Türk Dünyası Sosial Bilimler kongresi (30 Ağustos-06 Eylül 2014, Kazan – Tataristan (Rusya Federasyonu), İstanbul, – 2014. – s. 23-31.

[101]Halilov T Tunç çağı seramiklerinin desenleri işığında Nahcıvan'dan Orhun'a prototürk damga ve işaretleri // – Kırgızistan: Manas Journal of Social Studies, – 2019. Cilt 8 , sayı 1, – s. 883-893.

ilə bağlı olmuşdur. Boyalı qablarla təmsil olunan abidələr kompleksinin çox olması, bu abidələrdən xeyli miqdarda boyalı qabların aşkar olunması onu qeyd etməyə əsas verir ki, Orta Tunc dövründə olduğu kimi, Son Tunc-Erkən Dəmir dövründə də Naxçıvan diyarı ”Boyalı qablar mədəniyyəti”nin əsas mərkəzlərindən biri olmuşdur.[102]

Hündürdabanlı qədəhlər, kənarları iki tərəfdən batıq olan kasalar, çəkmə formalı çaynik tipli qablar, bəzi qabların üzərindəki yuvarlaq qabartmalar, konnelyur ornamentlər, ağ inkrustasiya bu dövrə aid keramika məmulatlarından olmuş, Naxçıvan diyarının Son Tunc-Erkən Dəmir dövrü dulusçuluq  sənətini öyrənmək üçün mühüm elmi əhəmiyyət daşımışdır. Bu dövrün keramika məmulatları içərisində ağ inkrustasiyalı qabların az olması (I Kültəpə, Qazxan abidələrində qeydə alınıb) Naxçıvanın bu tip qabların əsas istehsal ocağı olmaması ilə bağlıdır. Mərkəzi Avropadan və Kiçik Asiyadan Çinə qədər geniş bir ərazidə yayılmış belə qablar Azərbaycanda “Xocalı-Gədəbəy mədəniyyəti”nin yaradıcıları olan tayfalar tərəfindən hazırlanıb.[103]

Çaynik tipli qablar Orta Tunc dövrünün lüləkli qabları ilə bir qədər bənzərlik təşkil etsə də, forma və xüsusiyyətinə görə onlardan fərqlənir. Belə qabların bir qrupunda Xocalı-Gədəbəy mədəniyyətinə aid göbələkşəkilli çıxıntıların, konnelyur ornamentlərin olması faktı Naxçıvandakı yerli mədəniyyətin Yaxın Şərq və Xocalı-Gədəbəy mədəniyyəti ilə qarşılıqlı əlaqədə inkişaf etdiyini sübut edir.[104]

Dünyanın digər yerlərində olduğu kimi, Naxçıvanda da çəkmə formalı qabların daha çox qəbirlərdə aşkar edilməsi onu sübut edir ki, bu qablardan daha çox müəyyən dini ayinlərin icrasında istifadə edilmişdir[105]. Bu dövrün keramika məmulatlarında Orta Tunc dövrünün ənənələri ilə yanaşı “Xocalı-Gədəbəy” mədəniyyətinə aid xüsu-

---

[102]Halilov T. Nahçıvanda Boyalı kablar kültürü // Ankara: TÜBAR. Hacı Bayram Veli Üniversitesi, – 2011. sayı 30, – s. 166-176

[103]Halilov T. Nahçıvan’da Son Tunç– Erken Demir Çağının Boyasız Kil Kapları // – Ankara: TÜBAR. Hacı Bayram Veli Üniversitesi, – sayı 34, s. 131-148.

[104]Halilov T. Nahçıvanda Boyalı kablar kültürü // Ankara: TÜBAR. Hacı Bayram Veli Üniversitesi, – 2011. sayı 30, – s. 166-176.

[105]Xəlilov T.F Naxçıvan diyarının son tunc dövrü abidələrindən aşkar  olunmuş çəkmə formalı gil qablar // Hoca Ahmet Yesevi 2. Uluslararası Bilimsel Araştırmalar kongresi, – Erzurum: 6-8 Aralik 2019. – 2019. – s. 711-716.

siyyətlərin olması “Xocalı-Gədəbəy mədəniyyəti”ni yaradan tayfalarla “Boyalı qablar mədəniyyəti”ni yaradan tayfalar arasında mədəni birləşmə prosesinin olduğunu qeyd etməyə əsas verir.[106]

**Dissertasiyanın məzmunu müəllifin aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**

1. Gəmiqaya ətrafında arxeoloji tədqiqatlar. – Naxçıvan: Əcəmi, – 2018, – 120 s.
2. Nahçivan’daki Erken Tunç çagi yerlesimlerinde bulunmus kil hayvan figürinleri // – Kars: Avrasya Uluslararası Araştırmalar Dergisi, – 2013. cilt 2, sayı 3, – s. -10.
3. M.Ö. VI – I. yüzyıllarda Nahçıvan’da seramikçilik // –Turcology Research – 2013, sayı 50, – s. 201-21
4. Nahçıvan’da Son Tunç-Erken Demir çağının boyasız kil kapları // – Niğde: Türklük Bilimi Araştırmaları, – 2013, 18 (34), – s. 131-148.
5. Naxçıvan’da Son Tunç-Erken Demir çaği yerleşimlerinin yerleşme alani ve onlardan bulunmuş arkeolojik bulgular // 12 Uluslararsı Türk Dünyası Sosial Bilimler kongresi, Kazan: – 30 Ağustos-06 Eylül , – 2014. – s. 23-31.
6. Nahçıvan’da Orta Tunç çağı buluntuları işığında sanatsal yapı // – Kilis: Asia Minor Studies (international journal of social sciences), – 2014. cilt, 2, sayı 3, – s. 12-29.
7. Nahçıvan’da Son Tunç–Erken Demir çağının kil kabları // – Kirgızistan: MANAS Sosyal Araştırmalar Dergisi, – 2014, 3 (1), 2014. 43-72.
8. Bişmiş torpaq mədəniyyəti: tarixi, texniki məsələləri və yayılma areali haqqinda // Qafqaz tarixinin aktual məsələləri, – Gəncə: – 2015. – s. 342-346.
9. Naxçıvanın Erkən Tunc dövrü abidələrindən tapılan dulusçu məhsullarının xüsusiyyəti və semantikası // Tarixi ipək yolu və Naxçıvanın iqtisadi mədəni əlaqələrinin inkişafı məsə-

[106]Halilov T, Nahçıvanda Boyalı kablar kültürü // Ankara: TÜBAR. Hacı Bayram Veli Üniversitesi, – 2011. sayı 30, – s. 166-176

ləlɘri beynəlxalq ipək yolu konfransı, – Naxçıvan: – 16-17 oktyabr 2015, – 2015, – s. 52-53.
10. Naxçıvanın qədim dulusçuluq məmulatlarının təsnifatı // Azərbaycanşunaslığın aktual problemləri "Ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş V Beynəlxalq elmi konfransın materialları", – Bakı: 2015, – s. 517-520.
11. Gemikaya çevresinden bulunmuş yeni sanatkarlık ürünleri // – Kilis: Asia Minor Studies (International Journal of Social Sciences), – 2015, sayı 3, – s. 13-149.
12. Nahçıvan'ın haykaltaraşlık tarihi // Avrasya Sanat ve Medeniyet Dergisi, – 2015, sayı 2, – s. 29-38.
13. Nahçıvan'da Erken Tunç çağı buluntuları ışığında sanatsal yapı // Kirgızistan: MANAS Sosyal Araştırmalar Dergisi, – 2015, 4 (5), – s. 62-72.
14. Naxçıvanın Erkən Tunc dövrü dulusçuluq məhsulları // – Naxçıvan: Naxçıvan Dövlət Unversitetinin Elmi əsərləri, – 2016. № 5 (79), – s. 97-103.
15. Dulusçuluğun öyrənilməsinin aktual məsələləri // – Bakı: Azərbaycan arxeologiyası və etnoqrafiyası, – 2016. № 2, – s. 43-52.
16. Naxçıvanın Son Tunc dövrü gil qabları üzərindəki ornamentlər haqqında // – Bakı: Azərbaycan arxeologiyası və etnoqrafiyası, – 2016. № 2, – s. 63-67.
17. Naxçıvanın Orta Tunc dövrü dulusçuluq sənəti // Ulu öndər Heydər Əliyev irsində multukultural və tolerant dəyərlər "Ulu öndərin anadan olmasına həsr edilmiş beynəlxalq elmi konfrans", – Bakı: – 3-5 may 2016 -cı il, Bakı, – 2016 – s. 409-412.
18. Seramik bulguların ışığında Nahcıvan'ın Erken Tunç çağı kültürü // Uluslararası Yönetim ve Sosyal Araştırmalar Dergisi, – 2016, 3 (5), – s. 1-7.
19. Gemikaya çevresinden bulunmuş Tunç çağı seramiklerinin morfolojik ve tipolojik özelliği // Nahçıvan ve Doğu Anadolu

abideleri Uluslararsı sempoziumu, – Nahçıvan: – 1-12 mays 2015, – 2016, – s. 190-199..
20. Об орнаментах на керамике Эпохи Ранней Бронзы в Нахчыване // Материалы Международной научной конференции, посвященной 25-летию образования Республики Ингушетия “Образование, Наука и Культура Кавказа: Традиции и Современность” – Назрань: – 2017, – с. 285-290.
21. Nahçıvan bölgesi Erken Tunç çağı seramik desenlerinin yayılım alanı ve anlamı hakkında // – İstanbul: Uluslararası Bilimsel Araştırmalar Dergisi (İBAD), – 2017, 2 (1), – s. 23-33
22. Prototürk kültürünün ışığında Nahçıvan’ın Tunç çağı seramikleri // – Kilis: Asia Minor Studies, – 2017, 5 (10), – s. 60-72.
23. Nahçıvan’da seramikçiliğin gelişim tarihinden // – Trabzon: Karen: Karadeniz Araştırmaları Enstitüsü Dergisi, – 2017, 3 (3), – s. 117–128.
24. Nahçıvan'ın eski sanat alanlarınından // Karadeniz Uluslararası Bilimsel Dergi, – 2017, sayı 34, – s. 22-29.
25. Nahçıvan’da Tunç çağı seramiklerinin desen motifleri // – İstanbul: Art-Sanat Dergisi, – 2017, sayı 8, – s. 1-7.
26. Nahçıvan toprağının Tunç çağı kil kabları üzerindeki hayvan resimlerinin yayılım alanı ve anlamı hakkinda // IV. Uluslararası Türk Dünyası Araştırmaları Sempozyumu, – Niğde: – 26-28 Nisan 2017, – 2017, – s. 303-310.
27. Naxçıvanın tunc dövrü qablarının rəngləri və ornamentasiyası haqqında // – Naxçıvan: Naxçıvan Dövlət Universitetinin Elmi Əsərləri, – 2018. № 2 (91), – s. 68-74
28. Bişmiş torpaq mədəniyyətinin Naxçıvan abidələrində izləri // Azərbaycanşunaslığın aktual problemləri, “Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş IX Beynəlxalq Elmi Konfransın Materialları”, Bakı: – 3-4 may, – 2018, I his. – s. 626-628.

29. Tunc dövrü qablarının rənglənmə texnologiyası haqqında // Gənc alimlərin III Beynəlxalq Elmi Konfransı, – Gəncə: – 17-18 oktyabr 2018-ci il, – 2018, – s. 273-276.
30. Seramik bulgulari işığında Gemikaya çevresi // 2. Uluslararası Sosial Bilimleri ve Egitim Araşdırmalar sempoziumu, – Konya: – 22-24 October, – 2018, – 2018. – 433-442.
31. Tunç Çağı seramikleri ışığında Nahçıvan yöresinin kültürü // II. Uluslararası Eğitim Bilimleri ve Sosyal Bilimler Sempozyumu, – Çanakkale: – 02-04 Kasim, – 2018, – s. 229-242.
32. Nahçıvan toprağının Orta Tunç çağı seramiklerinin süsleme (Ornamental) Özelliği // Tarih ve kültür ekseninde Orta Aras havzası uluslararasi sempozyumu, – Ankara: – 17-19 Kasım, 2016, – 2018, – s. 43-453.
33. Nahçıvan'ın Son Tunç çağı kıl kapları üzerindeki geometrik desenlerin yayılım alanı ve anlamı hakkında // – Konya: Tarihin Peşinde Uluslararası Tarih ve Sosyal Araştırmalar Dergisi, – 2018, 18(18), – s. 387-397.
34. Nahçıvan bölgesının Orta Tunç çağı kıl kapları üzerındekı desenlerın yayılım alanı ve anlamı hakkında // – Trabzon: Karen: Karadeniz Araştırmaları Enstitüsü Dergisi, – 2018, 4 (5), – s. 141-154.
35. Naxçıvanın Tunc dövrü dulusçuluq sənəti // – Bakı: Azərbaycan Arxeologiyası, – 2019. C. 22, № 2, – s. 30-39.
36. Tunc dövrü dulusçuluq sənətinin texniki üsulları haqqında // – Naxçıvan: AME Naxçıvan Bölməsinin Xəbərləri, – 2019. № 1 – s. 97-102.
37. Araba kültürünün Nahçıvan abidelerimde izleri (Erken Tunç çağı bulguları esnasında // Hoca Ahmet Yesevi Uluslararası Bilimsel Araştırmalar Kongresi – Adyaman: 26–27 Ağustos 2019, – 2019. – s. 1175-1182.
38. Naxçıvan diyarinin Son Tunc dövrü abidələrindən aşkar olunmuş çəkmə formal gil qablar // – Hoca Ahmet Yesevi 2. Uluslararası Bilimsel Araştirmalar kongresi, – Erzurum: 6–8 aralik, – 2019. – s. 711-716.

39. Pişmiş toprak kültürünün ışığında Nahçıvan bölgesi (M.Ö. IV-I binyıllar) // III. Congress of International Applied Social Sciences, – Konya: 04th-06th April, – 2019, – s. 46-63.
40. Seramik bulgularin işiğinda Nahçıvanın Orta ve Son Tunç çaği kültürü // – İstanbul Journal of Social Sciences, – 2019, sayı 23, – s. 1-12.
41. Naxçıvan diyarının Son Tunc dövrü abidələrindən aşkar olunmuş çəkmə formal gil qablar // – Kırgızistan: Academic Social Resources Journal, 2020, – 5 (11), – s. 12-15.
42. Tunç çağı seramiklerinin desenleri işığında Nahcıvan'dan Orhun'a prototürk damga ve işaretleri // – Kırgızistan: MANAS Sosyal Araştırmalar Dergisi, – 2019, 8 (1), – s. 862-872.
43. Nahçıvan'ın Tunç çaği kültürü // VI. Uluslararası TURK-CESS Eğitim ve Sosyal Bilimler Kongresi, – İstanbul: – 30 Ekim-1 Kasım, – 2020. – s. 27-41.
44. Naxçvanın Erkən Tunc dövrü abidələrindən aşkar olunmuş gil təkərlər haqqında // – Naxçıvan: AME Naxçvan Bölməsinin Xəbərləri, – 2020. № 1, – s. 99-104.
45. Tunc dövründə Naxçvanda dulusçuluğun yayılma arealı // – Naxçıvan: AME Naxçvan Bölməsinin Xəbərləri, – 2020. № 3, – s. 8-87.
46. Nahçıvan bölgesinin Erken Tunç çağı yerleşimlerinde bulunan pişmiş toprak objeler // – İstanbul: Art-Sanat Dergisi, – 2020, sayı 13, – s. 189-203.
47. Ареал распространения орнаментов на керамике Эпохи Ранней Бронзы в Нахчыване // – Вестник КазНУ. Серия историческая, – 2020, 96 (1), – с. 47-50.
48. Nahçıvan'ın Tunç çağı seramikçilik sanatı // Avrasya Sosyal ve Ekonomi Araştırmaları Dergisi, – 2020, 6 (12), – s. 313-332.
49. Naxçıvanda dulusçuluq sənətinin tarixi və formalaşması prosesi // – Naxçıvan: AME Naxçvan Bölməsinin Xəbərləri, – 2021. № 1, – s. 70-76.

50. Milli-mənəvi dəyərlərimizin Tunc dövrü keramikaları üzərində əks olunması // – Naxçıvan: Naxçıvan Unverstetinin Elmi Əsərləri, – 2021. № 03 (22), – s. 165-171.
51. Nahçıvan bölgesinin boyalı kablar kültürü // VII. Uluslararası TURKCESS Eğitim ve Sosyal Bilimler Kongresi, – İstanbul, 01 Eylül-03 Eylül 2021, – 2021, – s. 401-410.
52. Naxçıvan bölgəsinin Tunc dövrü abidələrində aşkar olunan gil insan fiqurları haqqında // – Naxçıvan: AMEA Naxçıvan Bölməsinin Xəbərləri, – 2022. № 1, – s. 90-94.
53. Nahçıvan bölgesinin Tunç çağı yerleşimlerinde bulunan çömlekçi fırınları ve atölyeleri // – İstanbul: Art-Sanat dergisi, – 2022, sayı 17, – s. 177-19.
54. Seramik Bulğuların Işığında Nahçıvan'dakı Tunç Çağı kültürü / XVIII Türk Tarih kongresi, – Ankara, – 1-5 ekim 2018, 2022, – s. 405-425.
55. Следы древней турецкой культуры в Нахичеване в свете археологических материалов // Сборник статей, докладов и материалов международной научно-технической конференции "Соседство от Окрестностей Самарканда к Другим Евразийским Центрам: Центральная Азия Через Историческую Призму", – Самарканд: – 2 июня 2023, – с. 57-64.
56. Nahçıvan'in Son Tunç çaği yerleşimlerinde bulunan silindir mühürler // İstanbul Sosial Bilimler dergisi, – 2023, sayı 38, – s. 1-12.
57. Valuable findings about the ancient history of Nakhchivan // VII. International Applied Social Sciences Congress (C-IASOS-2023) – Valletta – Malta, 13-15 November, 2023, – p. 753-758.
58. Pottery in the Bronze Age of Nakhchivan // Akademik Tarih ve Düşünce Dergisi, – 2023,10 (6), – s. 2048-2072.

Dissertasiyanın müdafiəsi 14 iyun 2024-cü il tarixdə saat ___ AMEA Naxçıvan Bölməsi nəzdində fəaliyyət göstərən ED 1.13 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 7000, Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 76, AMEA Naxçıvan Bölməsi, əsas bina, I mərtəbə, akt zalı

Dissertasiya ilə AMEA Naxçıvan Bölməsinin kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları AMEA Naxçıvan Bölməsinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat ___ may 2024-cü il tarixdə zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 08.05.2024
Kağızın formatı: 60/84, 16/1
Həcm: 91.837
Tiraj: 100